**AFAQ ŞIXLI**

# ÖMRÜMÜN BEŞİNCİ FƏSLİ

**(Şeirlər)**

**2013**

**Afaq Şıxlı “Ömrümün beşinci fəsli”**
**Bakı, “Adiloğlu” nəşriyyatı, 2013, səh 180**

**Ön sözün müəllifi: Məmməd İSMAYIL**

**“Ömrümün beşinci fəsli” – istedadlı şairə Afaq Şıxlının ana dilimizdə beşinci kitabıdır. Burada toplanmış şeirlər həm forma və həm də məzmunca rəngarəngdir. Vətən həsrəti, övlad sevgisi, ana məhəbbəti, şəhidlərimizə ehtiram, ilahi eşq və s. mövzularda şeirlər, eləcə də şairənin qələm dostlarına ithafən yazdığı şeirləri də kitabda yer almışdır.**

**Ümidvarıq ki, A. Şıxlının bu kitabı da çoxsaylı oxucuları tərəfindən rəğbətlə qarşılanacaqdır!**

# ŞEİR ONUN ÜÇÜN QARA SEVDADIR...

2012-ci ilin fevral ayında Moskvada "Vmesto pisma" kitabımın təqdimat mərasimində həmyerlimiz şairə Afaq Şıxlı ilə yaxından tanış oldum. Bu şairin əvvəllər də dövrü mətbuatda imzasına rast gəlmişdim. Amma bu rastlantılar ötəri xarakter daşımışdı. Azərbaycanda, eləcə də dünya ədəbiyyatında qadın poeziyası kişilərin yazdıqları ilə müqayisədə elə də ağır çəkiyə malik deyil. Əlbəttə bu yöndə xoş istisnalar da var. Rus ədəbiyyatını Marina Svetayeva və Anna Axmatovanın əsərləri olmadan təsəvvür etmək mümkün deyil. Son dövr Azərbaycan ədəbi mənzərəsində boy göstərən qadın şairələrimizdən bəzilərinin yenilik arayışları da gələcəyə ümidlə baxmağa əsas verir.

Bu fikrin yaranmasında şübhəsiz Afaq Şıxlı imzasının xüsusi payı var. Fikir yüklü şeirləri və bir neçə dildə sərbəst danışması Afaq Şıxlının Moskva ədəbi mühitində mövqe qazanmasına səbəb olmuşdur. Doğrusunu deyim ki, onun, istər Marina Tsvetayevanın ev-muzeyində Rusdilli oxucularla, istərsə də Millətlər evində Rusiyada yaşayan həmvətənlərimizlə görüşlərimdəki çoxlarından fərqlənən çıxışları məndə ona qarşı bu inam və rəğbəti yaratdı.

Şairənin indiyə qədər "Qəlbimin dedikləri" (2003), "Sevərsənmi" (2005), "Məndən uzaqda" (2008), "Səni düşünürəm" (2011) və "Dostlarım, bana da bahar gönderin" (2013, türkcə) kitabları çap olunub.

Şeir və hekayələrdən ibarət olan bu kitabları oxuduqca, ədəbiyyatımıza ciddi məramlarla gələn və bu məramlarını əsərlərinə yüksək səviyyədə yansıdan bir qələm sahibinin ürək çırpıntılarını hiss edirsən.

Yazdığım bu cümləllərin bir az soyuq alındığının özüm də fərqindəyəm. Əslində Afaqla və onun əsərləri ilə yaxından tanış olduqca Moskvada-qürbətdə yaşayan bu xanım üçün şerin bir sonuncu sığınacaq yeri və qara sevda olduğunu bilən və görən adamın onun haqqında soyuq mühakimə yürütmək haqqının olmadığını da bilirəm. Bu xanım, şeirlə yatır, şeirlə qalxır və nəfəsini şeirlə alır desək əsla yanlış olmaz. Bəlkə Azərbaycan aurasından və ədəbi mühitindən uzaqlığı onda bəzi tərəddüdlərə səbəb olur. Amma nəyə olur olsun Anadolu türkləri demiş, bir şeyə ki, qara sevda ilə bağlandın, orada qapını döyənin uğur barmaqları olacağı şübhəsizdir.

Ədəbiyyat dil hadisəsidir. Hər şeydən əvvəl Afaqın əsərlərində mükəmmməl, coşgulu və axıcı bir dilin varlığı razılıq doğurur. Onun misralarındakı hər söz canlı, yerində və dipdiridir:

**Sonsuz xəyallarımdır ürəyinə daşınan,**
**Unutmaq bir yalandır, çabaların boşuna!**
**Keçmişinin əlindən gizlənməkçün başına**
**Həsrətimi çəkərsən, çəkərsən həsrətimi!**

Yaşını, başını almış şairlər var ki, bəlkə misralarının içində ala-babat fikir də var, amma sözlər ölüdür, nəfəs almaqdan məhrumdur. Afaqın əsərlərindəki bu axıcılığı onun "Şıxlı" nəslindən olmasında da axtarmaq olar. Atalarımız yerində demişdir ki, usta oğlundan şagird olmaz. İsmayıl Şıxlı ünvanlı bir sənəd məbədinin qanını daşımaq, "əslində olan dırnağında bildirəcək" misalını doğruldacaq səviyyədədir:

**Bu dünya,**
**O dünya,**
**Bir də ikimiz,**
**Arada oyunu heç heçə bil, sən!**

Yaxud;

**Sevgiymiş yaşadan vuran ürəyi,**
**Dərəsiz dumanın yoxmuş gərəyi.**
**Buludlar dağların bəyaz örpəyi,**
**Qayalar düzlərin başdaşı imis!**

Süddən, sümükdən, ruhdan, qandan keçən "Şıxlılıq" onu anadan olandan vergili bir ünvana çevirib, on beş yaşında orta məktəbi qızıl medalla qurtarmaq, tibb insitutunu iyirmi yaşında fərqlənmə diplomu ilə bitirmək öz-özlüyündə vergili olmağın işarətləri deyilmi? O "Şıxlı" vergisi nəhayətdə Afaqı ədəbiyyat məcrasına yönləndirəcəkdi, yönləndirdi də:

**Sən - yağış ətirli, Günəş nəfəsli,**
**Qəlbimdə ötəri naxış deyilsən...**
**Sən - mənim ömrümün beşinci fəsli,**
**Nə bahar deyilsən, nə qış deyilsən.**

Pulun hakim olduğu, her şeyin alınıb satıldığı dünyada bir dəli sevgiyə ehtiyac varmı? Hələ də, dəlicəsinə sevilirmi, ümumiyyətlə? Bu sualların cavabı oxuyanına baxır. Yetmiş üç yaşlı mənim kimi bir adam üçün "sevgisi ötən əsrin sahillərində qaldı" da deyilə bilər. Amma "O mənəm, o mənim ondoqquz yaşım, Sızlayır şəhərlə kənd arasında" deyən, içində hələ də ilk sevginin yaraları qaysaqlanmayan 19 yaşlı Məmməd İsmayılovun yanıb qovrulduğu illəri hayana qoyaq bəs? Onun, həyatı ürək dolusu yaşamaq növbəsinə dayanan gənclərlə indi də bir əlaqəsi varmı? Əlbəttə vardır! Təsadüfən qarşılaşan iki yad adami doğmalaşdiran böyük hərflərlə yazilacaq sevgi olmasa, yaşamaq mümkündürmü? Ömrün hansi çaği, hansi yaşi olur olsun, mümkün deyil! Necə ki, Kürün, ya da Arazın başlanğıcı

olan Türkiyənin Mingöl dağlarındakı bulaqları ortadan qaldırsaq, bu çayların Xəzərə çatmaq şansı qalmazdı...

İnsan SEVGİSİNİN ömrü üç mərhələdən ibarətdir: Birinci, sevginin ilk hissedilişi, ikinci, sevgi həyatına daxil olub yaşanılması, üçüncüsü isə  sevgi haqqında xatirələr. Yenə yuxarıda adını zikr etdiyimiz Marina Svetayevaya üz tutsaq maraqlı ip ucları ilə qarşılaşarıq: Sənə necə münasibsə məni elə də sev və onu mənə uyğun şəkildə ifadə et, amma elə et ki, mən bundan xəbər tutmayım". Yerin yaz yaddaşı hər il ilk baharını yaşadığı kimi, olsun bir az dəyişik biçimdə hər gələn nəsil də öz sevgi baharını yaşamalıdır, yaşayır da! Sadəcə yayın, payızın, illah da qışın... çıxdığı bahara geri dönmək həvəsi yoxdu yəqin ki! Zaman da var, imkan da, hər şeyin başı olan  həvəsdən savayı. Afaq Şıxlıda isə bu dəli həvəs var, başa varması, vüsala qovuşması müşkülə düşmüş sevgiləri şeirlərində yaşatmaq həvəsi:

**Nədən mənim deyilsən,**
**ey mənim ayrı dünyam?**
**Kövrək nağıllarımın ağ atlı şəhzadəsi!**
**Ey ağlımı çaşdıran,**
**başımı hərləndirən ətirli mey badəsi!**

Afaq Şıxlı yaradıcılığını hansı ədəbi məktəbə aid etmək olar? Adam var ki, bir kitab ağzı açmadan, hətta küməsindən kənara çıxmadan ilahi bir fəhmlə dünyanın çoxşifrəli sirlərinə vaqif olur. Adam da var ki, bəlkə bitirmədiyi məktəb, oxumadığı kitab yoxdur, amma Haqdan vergili olmadığından yazı-pozusu kəllə suyundan başqa bir şey deyil. Sevindirici haldır ki, Afaq Şıxlıda həm Haqdan gələn bir ilham, həm də mütaliədən yaranan bir yetkinlik var. Ona görə də gərək şeir vəznlərindən, gərəksə də biçimlərindən istifadə etməkdə çətinlik çəkmir. Həm də

ədəbiyyatımıza yeni gələn ədəbi qüvvələrin bəzilərində olduğu kimi, yenilik adına əllaməlik etmir, sadəlikdə mürəkkəblik arayışına girir. Kimə məlum deyil ki, Puşkin kimi sənətkarı modernistlərdən ayıran cəhət onun aydın və sadə yazmağı idi, onun dahiyanəliyini də ilhamının bu cəhətində axtarmaq lazımdır. Hamının anlaya biləcəyi, amma kimsənin bu cür yaza bilmədiyini yaza bilmək, budur əsas məsələ! Və Afaq da bu istedadı ilə oxucusunu heyrətlər içində buraxmağı bacarır.

”Sən mənim ömrümün beşinci fəsli” kitabına toplanmış şeirlər dediklərimizin birbaşa sübutudur. Bu kitabda Qazax-Tovuz aşıqlarının ruhi halında yazılan qoşmalara da rast gəlmək olar, fikrin sərbəstliyini içində barındıran şeir biçimlərinə də! Bir tərəfdə saza, sözə, Vaqif, Vidadi, Dilqəm, Azaflı Mikayıl kökünə köklənən aşiqanə qoşmalar, o bir tərəfdə çağdaş ritmləri öz içinə alan Mikayıl Müşfiq, Əli Kərim ruhi halları!

**Sevirsənsə, bu sevgini faş elə,**
**Vüsalını çək başına - nuş elə!**
**Ya sevmə heç, ürəyini daş elə,**
**Ya da elə aşkarca sev, amandı!**

Yaxud;

**Səs salmıram,**
**qıymıram kimsəni oyatmağa.**
**Kəkotulu, limonlu bir fincan da çay süzüb**
**köçürürəm vərəqə qəlbin zümzüməsini,**
**küləklərin səsini,**
**Hələ də əriməyən bu qürbətin qarını,**
**vətənin baharını,**
**duyğuların dilini,**
**dostların nisgilini...**

Yaxud;

**Yığacaqsan xaincə unutduğun nömrəmi,**
**İllərin arxasından məni səsləyəcəksən,**
**Cavab gözləyəcəksən...**
**Deyəcəksən: "Bu eşqsiz həyatımda rəng çatmır!"**
**Amma yoxam mən daha dəstəyin o başında...**
**Yalnız eşidəcəksən:**
**"Bu nömrəyə zəng çatmır!"**
**... … …**

Marina Svetayeva esselərinin birində yazırdı ki, "Rusya hansısa önəmli sözünü demək üçün iradəmin ziddinə məni seçdi. Və tərifləyə-tərifləyə buna məni inandırıdı ki, bu fikirləri olduğu kimi söyləməyi yalnız sən bacara bilərsən!" Bu mənada, bəlkə nakam sevdalar və sevgilər də özlərini izhar etmək üçün bir başqasını yox, onu - Afaq Şıxlını seçmişlər, kim bilir? Şerlərinin əsasını sevgi motiflərinin təşkil etməsi bizi bu qənaətə gəlməyə vadar edir. "Hər şairin öz hadisəsi, hər hadisənin öz şairi var" nəticəsinə gələnlərlə bu mənada razılaşmaq olar. "Şair üzərində məhkəmə onun özünün öz üzərindəki məhkəməsidir." Öz yaşantılarımdan, başım çəkdiyindən bilirəm: Qürbətdə dost yoxdur, şeir sevilməz. Afaqın durumu qürbət anlamında hardasa məndən dafa ağırdır. Türkiyə qürbət olsa da dini, dili eyni olan qardaş qürbətidir, Rusiya (Moskva) isə təkcə dinlərin, dillərin ayrıcalığı ilə deyil, eyni zamanda qəribanə havasıyla da müxalifətdədir. Amma yenə də təşnə ürəyini vermək üçün bir kimsə yoxsa, ürəyi sözə, şerə verməkdən münasib nə ola bilər ki?

**Yenə həsrət dolu axşam düşəcək...**
**Çəkə bilirsənsə bu həsrəti çək.**
**Qopur varlığımdan hecası tək-tək:**
**"Qa-yıt hə-ya-tı-ma, sən-siz ol-ma-yır!"**

Yaxud;

**Şair, xəyalında,**
**fikrində**
**hər dəm**
**Görəsən, özgəsi,**
**yoxsa ki, mənəm?**

Qürbətdə yaşayan şairə söz Vətən olur. Və nə yaxşı ki, belədir; Şeir də sevgi kimidir, o səni buraxana qədər davam etməlisən. Və… yenə "əgər sevilmirsə, sevilməmək şerin yox, bizim günahımızdır hardasa", - deyirdi M.Svetayeva. Və Svetayevanı tez-tez xatırlamağım da səbəbsiz deyil. Şairə haqqında bir şey yazarkən şairədən, həm də az qala uşaqlığından şerin, sözün dəli-divanəsi olan şairədən də örnək almayıb kimdən almalıyıq ki? Erkən yaşlardan şair, şeir heyranlığında A.Şıxlı bir başqasına yox, məhz M.Svetayevaya bənzəyir. "Mənim kimilərini Qiyamət günü vicdan məhkəməsində mühakimə edəcəklər, amma əgər Sözün vicdan məhkəməsi varsa, mən orda suçsuz və təmizəm,"- deyirdi M.Svetayeva. Bu anlamda oxucuların mühakiməsinnə verilən "Sən məmim ömrümün beşinci fəsli" kitabındakı şeirlər bizə haqq verir deyək ki, üslubları ilə bir-birindən fərqlənsələr də, bu kitabda ilhamsız yazılan bir şerə də rast gəlməzsiniz.

Hər kitab hardasa ayrılış və qopuşdur. Bu mənada bu kitaba toplanan əsərlər hardasa Afaqın əvvəlki kitaplarından xeyli dərəcədə fərqlənir. Buna şeirdən şerə ölmək və şeirlə yenidən dirilmək də deyə bilərsiniz!

**Gəl, məni hifz eylə, varsa amanın,**
**Zülmün verdiyini zülümə qaytar!**
*******
**Dünənlərə pəncərəni bağlayaq, gəl,**
**Sabahlara qapıları açmaq üçün!**

**Nələr tapdım, nələr itdi...**
**Bir inada hər şey bitdi.**
**Yarı yolda qoyub getdi,**
**Üzü dönükmüş, dönükmüş...**
*****
**Söyləyirdin həyatını**
**Yarı doğru, yarı yalan.**
**Bəlkə elə bu yarılar**
**Oldu bizi ayrı salan?**

Şeirə, ədəbiyyata qara sevda ilə vurulduğundandır ki, A.Şıxlının ədəbi uğurları ildən ilə, aydan aya deyil, mən deyərdim gündən günə artır. Beynelxalq Yazıçılar və Qəzetəçilər Assossasyasının, Avrasya və Rusiya Yazarlar Birliyinin üzvu olması bu elqızımızın artıq ölkə sərhədləri dışında ədəbiyyatımızın layiqli təmsilçisinə çevrildiyinin bir sübutudur. Əsərləri dünyanın müxtəlif dillərinə tərcümə edilən və Rusiyada, Türkiyədə, Almaniyada tez-tez çap olunan Afaq xanımın internetdə də pərəstişkarlar ordusunun olduğunu söyləmək heç də mübaliğə olmazdı.

Şairənin şeirlərinə bir çox qələm sahibləri nəzirələr yazırlar. Onlardan biri də elə mənəm. Onun şeirlərinin arasında tez-tez elələrinə rast gəlirəm ki, sadcə oxuyub ötə bilmirəm.

Düşünürəm ki, elə kitab yazmaq lazımdır ki, oxucu onu əlinə götürdükdə həyacan keçirsin, onsuz darıxsın, bir sözlə, masaüstü kitaba çevrilsin. "Ömrümün beşinci fəsli" də belə bir kitab olacaq. Çünki kitablar da insanlar kimidir, adlarına çəkir.

Uzun sözə nə ehtiyac?! Bu siz, bu da Afaq Şıxlının təkrarsız və doyulmaz şeirləri!

**Professor Məmməd İSMAYIL**
**Canaqqala, Türkiyə**

# *SƏN - YAĞIŞ ƏTİRLİ, GÜNƏŞ NƏFƏSLİ…*

## BİZİM YOLUMUZ

Gedirik, nəfəslər qarışır yelə,
Həyat tabloları ötüşür tək-tək.
Uzun bir yol durur qarşıda hələ...
Vüsala yetməyə tələsir ürək.

Bu yolun sonunda nələr var, nələr...
Nəyin sorağıdır alışan ocaq?!
Açılıb getdikcə ağ səhifələr,
İllərin yükünü unutduracaq.

Qəlbimdə yaralar olsa da dərin,
Yolların sonunda olsa da ölüm;
Sevilmək duyğusu necə də şirin!
Sevməksə ondan da gözəldi, ömrüm!

Nədən gələcəyi dərd eləyək biz?
Hər şeyi, hər şeyi zamana burax!
Bütün yol uzunu sən, mən – ikimiz…
Xoşbəxtliyə bax!

## MƏNİ SABAH UNUDARSAN...

Çalışma ki, məni bu gün unudasan...
Bağrım başı yaralıdır, qandır hələ.
Buz baxışlar ümidimi kəsib yaman,
Gəl daha da yaralama bilə-bilə.

Çalışma ki, məni bu gün unudasan...
Vərəqləyək ötənləri bəlkə bir az.
Söyləmə ki, belə yazıb yazı yazan,
Kim deyib ki, bir də geri dönmək olmaz!

Çalışma ki, məni bu gün unudasan...
Silinərmi bir məhəbbət əfsanəsi?
Gülümsəmə göz yaşları arasından,
Bu ağrılar - sevgimizin nişanəsi!

Mənim üçün bu dünyada tək sən varsan!
Dünya küsər – xoşbəxtlərə qarışmasaq!
Canım- gözüm, məni sabah unudarsan,
Əgər bu gün, elə bu gün barışmasaq!

## SEVƏN KƏSLƏR

Aşiq olmaq asansa da,
sevə bilmək asan deyil!
Min bir sirri, tilsimi var, cəfası var məhəbbətin!
Əsl aşiq - dözən kəsdir,
tez inciyib küsən deyil...
İmtahanı, sınağı var, vəfası var məhəbbətin!

Sevən kəslər gözləyərlər,
yeri gəlsə illər boyu!
Bir şam kimi yansalar da, ürəkləri ümid bəslər...
Dayanmadan hey gedərlər,
daş döşənsə yollar boyu,
Arzularla, gümanlarla yaşayarlar sevən kəslər!

Yarı-yarı paylaşaraq, bir həyatı iki bölmək,
Kiminçünsə şirin xəyal,
kiminçünsə əsarətdi.
Eşq yolunda dilə düşmək, məcnun olmaq,
...ölə bilmək -
Necə böyük fədakarlıq,
Necə böyük cəsarətdi!

Sevgi - bəzən,
çəmənlərdə çiçək dərib telə taxmaq,
Nəvazişlə sevdiyinin əllərinə toxunmaqdı.
Bəzən isə göz yaşları,
həsrət-həsrət yola baxmaq,
Nə zamansa eşitdiyin bir kəlməyə sığınmaqdı.

...Aşiq olmaq asansa da,
sevə bilmək asan deyil!
Min bir sirri, tilsimi var, cəfası var məhəbbətin!
Dözmək gərək yar yolunda hər əzaba...
bir il, beş il....
Ən sonunda vüsalı var, səfası var məhəbbətin!

## SƏN - MƏNİM ÖMRÜMÜN BEŞİNCİ FƏSLİ

Unutma, mən səni unutmamışam...
Yurd salıb getmisən ürəyimdə sən.
Qəlbimi kimləsə ovutmamışam,
Çünki, həmişəlik ürəyimdəsən.

Unutma, mən səni sevirəm hələ,
Bu sevgi azalmır, artır günbəgün.
Qayıdıb bir daha dönməsən belə,
Ruhum qovuşacaq ruhuna bir gün.

Sən - yağış ətirli, Günəş nəfəsli,
Qəlbimdə ötəri naxış deyilsən!
Sən - mənim ömrümün beşinci fəsli,
Nə bahar deyilsən, nə qış deyilsən...

Bilmirəm, heç nələr dəyişdi səni...
Durub-düşünürəm hər səhər-axşam.
Bircə istəyim var: Unutma məni!
Unutma, mən səni unutmamışam!

## DAN SÖKÜLÜR ARAMIZDA

İstəməzdim "sevdan" adlı bu yuxudan oyanmaq,
Aramızda yavaş-yavaş dan sökülür, deyəsən...
Bu dəfəki ayrılığa asan oldu dayanmaq,
Bu ayrılıq sahilləri niyə mənəm, niyə sən?

Yalanların inamımda ocaq çatıb məşhərə...
Közlərini yana-yana götürürəm əlimə.
Bu sevginin ilğımına inanmışdım boş yerə
Ürəyimdən nələr keçir, nələr gəlir dilimə.

Sənin üçün kiməm, nəyəm? Xəyalının qadını,
Ürəyinin sahibimi, dostun, yadın, sevgilin?
...Özün üçün sən qoyarsan bu hisslərin adını,
Mənim üçün, bu - sevgiydi, sənin adın - sevgilim!

İstəməzdim "sevdan" adlı bu yuxudan oyanmaq,
Yavaş-yavaş dan sökülür aramızda, biləsən!
Bu dəfəki ayrılığa asan oldu dayanmaq,
Tanımadım ürəyimi, tanımadın hələ sən...

## BİR GÜN
## MƏNLƏ BİRGƏ UNUDULARSAN

Yadimdadir hər şey, unutmamisham,
Amma, duşunmə ki sevirəm hələ.
Səni urəyimdən silib atmişam,
Yadimda ömurluk yaşasan belə.

Hər şey yadimdadir, bu günkü kimi...
Lakin buz bağlayib indi duyğular.
Yox oldun gəlincə ayriliq dəmi,
Yox oldu səninlə bağli arzular.

Sən bir xatirəsən: şirin və acı,
İstəməsəm belə, fikrimdə varsan.
Ölümdür bəlalı eşqin əlacı -
Bir gün mənlə birgə unudularsan!

## BU BAYRAM GECƏSİ

**B**u bayram gecəsi - sakit bir gecə...
Qarşımda bir kağız, bir də qələm var.
Sənin xəyalına dalmışam necə...
Bu da adətimdi axır zamanlar.

Sənlə danışıram ürəyimdə mən,
Səmada ulduzlar ada-adadı...
Səsin gəlməyincə üşüyür bədən,
Səninlə bağlıymış həyatın dadı.

Kölgəyə bənzəyir səbrim, qərarım -
Ruhumu ardınca sürüyüb gedir.
Möcüzəsi nəymiş bu bayramların,
Ümidim şam kimi əriyib gedir!

Səssiz telefon da donub elə bil,
Dünyam da soyuqdur bu yay günündə.
Sanki ürəyim də heç mənim deyil,
Qürurum diz çöküb sevgim önündə.

Sən də bir insansan, adi bir insan,
Bütün günahınla, səhvinlə birgə.
Hər şeyi bitirmək beləmi asan,
Qayıt - tənhalığı məndən əsirgə!

Nə bir məktubun var, nə də ki zəngin,
Sənsiz bu aləmdə qanadsız quşam.
"Mən sənin yadından çıxıram yəqin,
Sən mənim yadıma düşdüyün axşam..."

## SƏNDƏN YADİGAR

**B**u gün sənlə bağlı xatirələri
Gizlədim qəlbimin dərinliyinə.
Itirdim gözümdən bütün şeyləri,
Təkcə bu beşinə qıymadım yenə:

…Qəlbindən nur kimi axıb süzülmüş,
Misilsiz incitək sapa düzülmüş,
Sevgimiz naminə mənə yazılmış
Bir kitab saxladım səndən yadigar.

Hər bir sətirini baş sayacağım,
Sinəmin üstündə daşıyacağım,
Təsəllisi ilə yaşayacağım
Bir məktub saxladım səndən yadigar.

Məni gözləyərkən sənə yar olmuş,
Qış günü özlənən bir bahar olmuş,
İndi qəlbim kimi yanıb qor olmuş
Bir çiçək saxladım, səndən yadigar.

O görüş gecəsi sənə verdiyim,
Şirin gülüşlərlə sevindirdiyim,
Əyninə əlimlə geyindirdiyim,
Bir köynək saxladım səndən yadigar.

Biz idik ürəkdən sevib-sevilən,
Olmadıq bu eşqin qədrini bilən!
Nə həsrətin bitər, nə də ki çilən,
Bir göynək saxladım səndən yadigar.

Budur... sənlə bağlı xatirələri
Gömmüşəm qəlbimin dərinliyinə.
Olən ümidlərin boş qalıb yeri...
Bu beşlik içində tənhayam yenə.

## DƏNİZLƏR QOVUŞAN YERDƏ

Nur baxışlım, dərd eləmə,
Birləşəcək yollarımız.
“Bundan belə gecdir" demə,
Qarşıdadır baharımız.

Unudulmaz gözəl anlar
Gələcəyin röyasıdı.
Sevilməyə haqqımız var,
Dünya - sevgi dünyasıdı!

Göydə günəş, yerdə torpaq
Şahid olsun sevgimizə!
Harda olsaq birgə olaq,
Çən düşməsin izimizə!

Sevinc qəmə olsun qənim,
Ayrılıq sovuşan yerdə!
Gəl görüşək, ruhum mənim,
Dənizlər qovuşan yerdə!

## SEVGİ QOXUSU

Yaşlar giləlenir tumurcuq kimi,
Fikir səmasında şimşəklər çaxır.
Dolanıb boynuma bir muncuq kimi
Həsrətim güzgüdən üzümə baxır.

Gecənin üstündən keçib əsrlər,
Yataqdan bir sevgi qoxusu itib.
Axıb bir ürəyə dolubdu sirlər,
Qızarmış gözlərin yuxusu itib...

Sən demə sarılıb ayaqlarıma
Mənimlə gəlirmiş dönük qismətim.
Çöküb bədənimə, yanaqlarıma
Məni odlayırmış sönük qismətim.

Necə yandığımı, kül olduğumu
Yaxşı ki, görmədin baxışlarımda.
Səninlə tapmışdım kim olduğumu,
İtirdim alnının qırışlarında.

Bir saman çöpüymüş xoş xatirələr,
Heyif ki, acılar daha çox imiş...
Sənin həyatında var imiş nələr,
Mənim həyatımda nələr yox imiş...

## SEVİLƏN İNSAN

...Sevilən insanın yol çəkmir gözü,
Hər qapı səsinə ürəyi əsmir.
Kövrəlib yarıda qırılmır sözü,
Xəyala dalaraq əlini kəsmir.

O kimin, kim onun yadından çıxıb
"Unutdu" sözünü gətirmir dilə.
Buz kimi havada uzağa baxıb
Dayanmır eyvanda intizar ilə.

Kimisə gözləmir hər sabah-axşam,
Açılmır qucağı tanış qoxuya.
Ərimir ümidi əridikçə şam,
Əlində telefon getmir yuxuya.

Kiminsə... kiminsə tanış səsindən
Dağıtmır üstünə isti çayını.
Tərləmir aynası öz nəfəsindən,
Itirmir günlərin fərqsiz sayını...

Səssizcə ağlamır bütün gecəni,
Üşümür əlləri qışın qarından.
Yatmayıb seyr etmir gəlib keçəni -
"Onu" tanımaqçün addımlarından.

Bürünüb yorğana günorta vaxtı
Islatmır yastığı göz yaşlarıyla.
Qonşuda kiminsə kəsəndə baxtı
Dərdini bölüşmür tay-tuşlarıyla.

Günləri, ayları keçmir gümanda,
Ürəyi şad olan gümana yarmı?
Axtarmır özünü ötən zamanda
Sevilən insanın zamanı varmı?

## GECİKMİŞƏM... BAĞIŞLA!

Sənə ömür yolunda vəfalı yar olmağa,
Çəmənində çiçəyin, zirvəndə qar olmağa,
Yamanında, yaxşında yanında var olmağa
Gecikmişəm... bağışla!

Ağ duvağa bürünüb gəlinlik geyinməyə,
Sevən ürəyin olub sevinclə döyünməyə,
Varlığınla, adınla, eşqinlə öyünməyə,
Geçikmişəm... bağışla!

Bunca uzun illəri sənlə qoşa keçməyə,
Dostun, həmdəmin olub əlindən su içməyə,
Misra-misra süzülüb şeirinə köçməyə
Gecikmişəm... bağışla!

Sevinərdim omrümü ömrünə uduzmağa,
Baxışında əriyib, gözlərində azmağa!
Sənli arzularımı xeyirliyə yozmağa
Gecikmişəm... bağışla!

Görürəm, ömrüm-günüm, ümidlərin sönükdür...
Sanırsan ki, hər kəsin üzü sənə dönükdür.
Mümkün olsa, özümü keçmişinə salardım,
Səni qəza-qədərin pəncəsindən alardım,
Bütün məhəbbətimlə ürəyinə dolardım,
Üz-üzə qalsam belə yüz hərcayı baxışla!
Neyləyim ki, qədər bu...
Gecikmişəm, əzizim!
Gecikmişəm... bağışla!

## QAYIT!

**Q**ayıt, bilirsənsə dönə bilməyi!
Qayıt, unutmamış məni sevməyi!
Qayıt, intizarın ölümdən betər!
Qayıt, səni hərdən görməyim yetər!

Qayıt, ağlamamış qəm buludları,
Yenə tapdalayaq yaşıl otları.
Qayıt, gəlişinlə çəkilsin çənlər.
Öpsün izimizi həsrət çəmənlər...

Qırılsın amanı ayrılıqların,
Kəsilsin arası hıçqırıqların.
Sənli xəyallarım dar gəlir mənə,
Sənsiz yaşamaq da ar gəlir mənə...

Yetər sənsizliyə dözmüşəm! Qayıt!
Yetər, sənsizlikdən bezmişəm! Qayıt!
Qayıt, əvvəlkitək sevməsən belə...
Qayıt, mənim üçün dönməsən belə...

## GECƏ - BİZİM GECƏYDİ

Bir səssizlik, bir sükunət
dolanırdı havada,
Çən tutmuşdu dörd bir yanı,
otlar şehə batırdı.
Quşlar belə nəsə duyub
susmuşdular yuvada,
Bütün aləm məst olaraq
mışıl-mışıl yatırdı...

Nəfəsimiz qarışaraq
baxırdıq pəncərədən,
O yol bizi aparmırdı -
o yol sanki qaçırdı!
Məhəbbət də don geymişdi
ay işıqlı gecədən,
Duyğuların dili ilə
öz sirrini açırdı...

Tələsirdik.... Elə bil ki,
zaman yavaş ötürdü,
Saatlar da dayanmışdı,
heç bilmirdik neçəydi.
Ətrafdakı gözəlliklər
baxışında itirdi.
Bir sən vardın,
bir mən vardım...
Gecə - bizim gecəydi!

## YARI - YARI

Yarı gizli, yarı aşkar
Görüşürdük səninlə mən.
Günahlara bürünürdük
Yarı səndən, yarı məndən.

Yarı zorla, yarı xoşla
Taleyimiz barışırdı.
Yaz nəfəsli hisslərimiz
Bir birinə qarışırdı.

Söyləyirdin həyatını
Yarı doğru, yarı yalan.
Bəlkə elə bu yarılar
Oldu bizi ayrı salan?

Məhəbbət bir oyunmuydu -
"Kim inandı, kim aldatdı"?
Bir yarısı gerçək idi,
Bir yarısı zarafatdı?

Yarı uzaq, yarı yaxın
Aramızda məsafələr...
Yarı şirin, yarı acı
Xatirələr..., xatirələr...

Gətirməzdin dilinə sən,
İstəsəydin, yalanları.
Bundan belə sənə qalmış
Sözün gerdə qalanları!

## GÜNLƏRİN BİRİNDƏ

Günlərin birində qarşıma çıxıb,
Batırdın bu qədər günaha məni.
Həsrət qurşununu bağrıma sıxıb,
Kor qoydun axşamdan sabaha məni.

Gündüz fikir saydım, gecə də ulduz,
Günəşin nuruna sevinmədim mən.
Ürəyim od olub, vücudumsa buz,
Bu təzad içində hara gedim mən?

Düşübdür üzümə kədər kölgəsi,
Ağlım da, ruhum da əsirlikdədir.
Sənindir sanıram - hər gələn səsi,
Sirrin varlığında bu sirlik nədir?

Deyirəm, nə vaxtsa bitər bu çilə,
Çəkilər başımdan bu sevdan sənin.
Çıxaram qarşına mən gülə-gülə,
Baxaram halına o zaman sənin!

Məni görməzlikdən gələn gözlərin
İtirər xiffətdən yuxusunu da!
Məni də itirər acı sözlərin,
Həyatın “mən” adlı qoxusunu da!

## MƏNİ XƏYALLARLA QOYDUN TƏKBƏTƏK

Məni xəyallarla qoydun təkbətək,
Yarın qismət oldu divə, bilmədin.
Niyə danışdığın nağıldakıtək
Yaşaya bilmədin, sevə bilmədin?!

Sən sahib çıxmadın hisslərimizə,
Unutmaq istədin olub-keçəni.
Həsəd aparırdı sevənlər bizə,
İndi səndən ayrı görürlər məni...

"Ayrılaq!" deməyin ən böyük günah!
Demək ki, bu sənin son niyyətindi!
Yalanla yaşamaq çətindir, ancaq,
Sənsiz ömür sürmək daha çətindi.

Ürək söz dinləmir..., sevirəm hələ...
"Əlvida!" söyləmək ölümdən betər!
Gedirəm ömründən mən bilə-bilə,
Mənim də yerimə xoşbəxt ol, yetər!

## KAĞIZ XATIRƏLƏR

Bilmədən həkk olduq açıq-aşikar
Özgə şəkillərə özgə diyarda.
O gündən bir parça duracaq lal-kar,
Bir özgə albomda, özgə divarda.

...Göy sular boyunca gedəndə gəmi,
Əllərin əlimi sıxırdı bərk-bərk.
Alıb aparırdı kədəri, qəmi
Başımızın üstdən sovrulan külək.

Dünya boyanırdı sevgi rənginə
Qayalar alışıb sanki yanırdı.
Bizim xoşbəxtliyin xoş ahənginə
Bu kiçik gəmi də yırğalanırdı.

Vücudum əsirdi qəlbin dinəndə,
Bu necə hiss idi, bu necə duyğu?!
Məni gizləmişdin qaynar sinəndə,
Nədən çəkilmirdi hicran soyuğu?

Bir nisgil var idi gülüşümüzdə,
Həsrət dənizində adalaşırdıq...
Demə, o bəxtəvər görüşümüzdə
Hələ birlikdəykən vidalaşırdıq.

...Həmin gün, zamanın donduğu yerdə
Iki sevgiliydik...İndi - iki yad.
Vüsalın hicrana döndüyü yerdə
Özgə şəkillərə həkk oldu həyat.

Kimsə bilməyəcək nəçiyik, kimik,
Nəydi qəlbimizin o gizli dərdi...
Danışa bilsəydi bir insan kimi
Kağız xatirələr nələr deyərdi?!

## BİR GÜN MƏNİ AXTARARSAN

Bir gün məni axtararsan
 əl-ələ vermək üçün,
Hər keçdiyim yolu-izi
 Addım-addım gəzərsən.
Bir gün məni axtararsan
 "bağışla" demək üçün,
Nigaranlıq üzər səni -
 Yorularsan, bezərsən...

Təklənərsən bir gün, axır,
 Ömrün qürub çağında,
Boş-boşuna dolanarsan
 Eşqin solan bağında.
Nə axşamlar, nə sabahlar
 Rahat olmaz ürəyin,
Boylanarsan, boş görünər
 Eh, solun da, sağın da...

Odlanarsan - alışarsan,
 Sellər belə, soyutmaz,
Axtardığın gözəlliklər
 Daha səni ovutmaz.
Mənsə ayrı bir dünyada -
 Başqa ömrün çırağı,
Üzülsən də, əldən gedən
 Bir də geri qayıtmaz...

## YALANÇI DÜNYAMLA BARIŞMIŞAM MƏN

Elə donmuşam ki, susuram hələ...
Sanki, ürəyimdə qışın qarı var.
Eşqindən nə qalıb gətirim dilə -
Nə qoyub getmisən mənə yadigar?

Zaman azaldırmış hər bir günahı,
Hər dərdə, möhnətə dözmək olurmuş.
Günəşsiz açıram bəzən sabahı...
Ruhsuz da dolanıb gəzmək olurmuş.

Artıq, bəxtimdən də yoxdu gileyim,
Yalançı dünyamla barışmışam mən.
İstəyim qalmayıb yazı gözləyim,
Tufana, borana qarışmışam mən.

Daha nə gərək var söhbətə, sözə,
Pərişan ruhumun ifadəsisən.
Heyif, gələmmərik bir də üz-üzə, -
Sən başqa nağılın şəhzadəsisən.

## BİR KÖRPƏYDİM...

Bir körpəydim - anasının balası,
İstədiyim - ana südü, laylası.
Eşitdiyim - əzizləmə, oxşama,
Fərq qoymurdum heç səhərə, axşama.

Uşaq oldum - ayaqları yalıncaq,
İstədiyim - şirni, şəkər, oyuncaq.
Tökdüklərim - sandıq içi, bağlama,
Eşitdiyim - "canım, gözüm, ağlama!"

Gəncliyimin çoşub-daşan illəri,
Zümzüməylə keçirirdim günləri.
Gördüklərim - yazı-pozu, qiraət,
Gizlədiyim - qəlbimdəki məhəbbət.

Qoymadı ki, yumub-açam gözümü,
Cavanlığım tez yetirdi özünü.
Çəkdiklərim - oğul-uşaq qayğısı,
Oxuduğum - həzin ana laylası.

## BİR LAMPANIN IŞIĞINDA...

...İstəyirəm gül qoxuyan
Ətrin dolu otaq olsun...
Göylər bizə şahid dursun,
Yerlər bizə yataq olsun.

Sabah çağı qoşa duraq
Bir aynanın qabağında.
Bu gecənin izi qalsın
Gülümsəyən dodağında.

Bir əyləşək süfrəyə biz,
Nə çay olsun, nə qənd olsun -
Baxışımız birləşəndə
Qolun mənə kəmənd olsun.

Bir lampanın işığında
Sən yazasan, mən də baxım.
Misra-misra, sətir-sətir
Ürəyinə sızıb axım.

Görürsən ki, sevdalınam,
Sən də elə, məndən betər!
Bir yastıqda qocalaq biz...
Ömür harda bitər... bitər!

## BİR BAHAR YETƏRDİ…

*"Sənə ürəyimi verdim, əzizim,*
*Bir azca, bir azca sevvilmək üçün".*
*Tərlan Əbilov*

Yadıma salmışam bu gün nələri...
Qayıdıb dönmüşəm o çağa yenə.
Səndən miras qalan xatirələri
Həsrətlə düzmüşəm varağa yenə.

Elə bil aradan keçməyib illər,
Ömür də ötməyib bir külək kimi.
Elə bil o qatil, amansız əllər
Əzməyib sevgimi kəpənək kimi.

Cənnət bucağıymış sevilən bədən,
O, "sənli" dünyamın ən bəxtəvəri.
Sanki xəyallara qarışıb gedən
Ruhumun həsrətdən yoxmuş xəbəri.

"Məni sevirsənmi, görəsən, hələ?"
Soruram özümə bu anlarımda.
Şəkildən canlanəb gələsən dilə,
O sənsiz, o səssiz zamanlarımda.

De nədən tuş gəldi talelərimiz?
De nədən görüşdük, nədən ayrıldıq?
Dözüm imtahanı verəmmədik biz,
İnam da qırıldı, biz də qırıldıq.

Yalançı sözlərin iti xəncəri
Vurdu qəlbimizə həsrət naxışı.
Səndən ayrıldığım o gündən bəri
Bitib tükənmədi ömrümün qışı.

Deyəsən, səninlə gəldik üz-üzə -
Bu nakam sevgiyə yenilmək üçün.
Bir bahar yetərdi, əzizim, bizə -
“Bir azca, bir azca sevilmək üçün”.

## GƏL Kİ...

Mən səni yazmışam arzularıma...
Gəl ki, son qoyulsun intizarıma!

Gəl ki, qırılmasın son ümidlərim!
Gəl ki, unudulsun bütün dərdlərim!

Gəl ki, ürəyimi vurmasın sazaq!
Gəl ki, bəxtimizi birlikdə yazaq!

Gəl ki, pəncərəmi döyməsin sükut!
Gəl ki, səmamızı almasın bulud!

Gəl ki, qibtə etsin göydə ay bizə!
Gəl ki, elə olsun qış da yay, bizə!

Gəl ki, diri açaq səhərimizi!
Gəl ki, seyr eləyək şəhərimizi!

Gəl ki, dünənləri yada salmayaq!
Gəl ki, bundan belə tənha qalmayaq!

## ...SUSACAQ DODAQLARIMIZ

Bu necə imtahan, bu necə sınaq?
İşimiz bir gizli baxışdan keçir!
Həyat nə istəyir? Yaşayaq, sınaq?
Yolumuz enişdən, yoxuşdan keçir!

Uzaq dostlar kimi danışırıq biz,
Bir "salam" deyəndə, susuruq tez də.
Ancaq bu hissləri xəbər-ətərsiz
Bölüşə bilirik ürəyimizdə.

Qəlbində nələr var mənə verməyə?
Küsgündü əmrinə müntəzir ürək.
Bu soyuq ömrümə yaz gətirməyə
Bir sinə dolusu məhəbbət gərək.

Sən buna kor tale, ya qismət demə,
Belə yazılıbdı, niyə - bilmərəm.
Sənin olmayanı məndən istəmə,
Mən sənə "sevirəm" deyə bilmərəm.

Sənsə hisslərində azad quş kimi,
Unuda bilərsən, sevə bilərsən.
Bəlkə də, həsrətlə tutub əlimi
Mərhəmət dilərsən, sevgi dilərsən.

...Sakitcə ötəcək mənasız illər,
Yaxın olmayacaq uzaqlarımız.
Eh, üsyan etsə də sevən könüllər,
Yenə də susacaq dodaqlarımız.

## BİR ARZUM VAR İDİ...

**B**ir arzum var idi -
çıxıb qarşına
Görüşüb bir dəfə öpəydim səni.
İllərcə çəkdiyim həsrət adına
Tanrıdan çox şeymi istədim, yəni?!

Axtarıb içində elin-aləmin
Gözlərin gözümə baxaydı o gün.
Bu sevən qəlbimin, yanan qəlbimin
Atəşi səni də yaxaydı o gün.

Tutaydın əlimi...
Deyəydin: "Gedək!
Sən də bir qəribsən, mən də bir qərib.
Həyat çox şirindi, ömürsə gödək,
Qaçaq bu qürbətdən, əl-ələ verib".

Sonra da saçımı sığallayaydın,
Uğruma keçəydin imandan, dindən...
Məni bu həsrətdən çəkib alaydın,
Gözlərim dolaydı sevindiyimdən.

Zamandan arxaya nə qalsa, bizim,
Bir günü, bir anı verməzdik bada.
Sevərdin, sevərdim səni, əzizim,
Dünyada heç nəyi salmadan yada!

Ümid şamlarıydi alışan... Tək-tək,
Soyuq sözlərinin yelinə söndü.
Nədənsə demədin, demədin "gedək",
Yeddinci səmadan yerlərə döndüm.

Nə yerə sığacaq, nədə ki, göyə
Üzünü bir daha görmək istəyi...
Yadından heç zaman çıxmayım deyə
Hər gecə yuxuna girmək istəyi...

## MƏNƏ NİFRƏT ELƏ!

**M**ənə nifrət elə - unutmayasan!
Yadına salmağa bəhanə olsun.
Soyuyan sevgini unutmaq asan,
Nifrətin sevgindən divanə olsun!

Qoy məni yandırsın odun-ocağın,
Şimşəklər yalnızca göylərdə çaxar.
Məzarım olarsa sənin qucağın
Məni ucurumun başına çıxar.

Sən sel ol, razıyam al apar məni,
Külək ol, sovrulum burulğanında.
Əbədi sevgimtək itirdim səni, -
Nifrəttək dolaşım bəlkə qanında.

## SEVGİYƏ ÖYRƏŞMƏYİN!

Sən demə, mən ondan inciyirəmmiş,
Sən demə, sönürmüş qəlbimin odu.
Daha "can" deyəndə təngiyirəmmiş,
Sevgiyə oyrəşmək deyəsən budu!

Beləcə gəlirmiş, “hər şeyin” sonu...
Ən çılğın eşq belə bir zaman bitir.
O səni görməyir, sən də ki onu,
Hisslər aram-aram yox olub itir.

Hər şey adiləşir, görünmür gözə,
Susur dodağımız, susur qəlbimiz.
Biganə olmayın sevdiyinizə!
Sevənlər, sevgiyə öyrəşməyin siz!

## YƏQİN BİLİRSƏN…

Qızılı ay baxır siyah duvaqdan,
Qərib kölgə düşür şahid qovaqdan.
Bir sirli meh əsib dolur qəlbimə,
Sənə zəng etməyim bənddir bir himə,
Yəqin, bilirsən...

Eyvanım altında iki bəxtiyar,
Qarşı eyvandasa iki ixtiyar...
Səssizlik gecənin canına hopur,
Sənsiz ürəyimdə bir fəryad qopur,
Yəqin, bilirsən...

Xöşbəxtlik tez ötür, bircə an kimi...
Necə də uzaqsan... asiman kimi!
Sevgi də sevinir bir olanda biz!
Sənin əlindədir gələcəyimiz,
Yəqin, bilirsən...

Gəl, canım, hicranı salaq kəməndə,
Qovaq da şad olur bizi görəndə.
Son görüş yerində görüşək yenə,
Həsrəti yandıraq!
..........................
...Niyə deyirəm,
Yəqin bilirsən!

## MƏN SİZƏ GƏLƏCƏM...

*Mərhum* bəstəkarımız
***Emin Sabitoğlunun xatirəsinə***

"**M**ən sizə gələcəm yağmurlu gündə,
Üzümdə, gözümdə, kirpiyimdə nəm..."
Mən sizə gələcəm uğurlu gündə,
Sevinclər içində əriyəcək qəm.

Mən sizə gələcəm səhərlə birgə,
Bu ötən hicrana güləcəyik biz.
Bizi qovuşduran şəhərlə birgə,
Həqiqət olacaq səadətimiz.

Ömrünün qışında son ümid yeri –
Mən sizə gələcəm ilk bahar kimi.
Eşqinin atəşi dönəcək geri -
Gənclik çağındakı duyğular kimi.

Mən sizə gələcəm, vallah gələcəm!
Sevinclər içində əriyəcək qəm!

## ÇAĞIR GƏLİM!

Ürəyimiz bir olsa da
yollarımız yaman ayrı...
Məni sənlə görüşdürən,
ayrı salan zaman ayrı...
Qovuşmağa can atsaq da
istək ayrı, güman ayrı...

Bu nə sirdi, bu nə hikmət?
Bilirsən de, mən də bilim!
Darıxıram səndən ötrü,
Çağır məni, çağır gəlim!

Məhəbbətim, nə yaxşı ki,
uğuruma çıxmısan sən!
Bir nur kimi, şəfəq kimi
ürəyimə axmısan sən.
Eşqim olub, bəxtim olub
mənə sarı baxmısan sən!
Ürəyinin istisini
əllərindn alsın əlim!
Darıxıram səndən ötrü,
Çağır məni, çağır gəlim!

Günlər keçir, boş-boşuna...
ötürürük zamanı, biz!
Məcnunların, Leylilərin
sona qalan gümanı biz!
Tarixlərə görk eləyək
qəlbimizə damanı biz!
Bir ömrüm var - səninkidir!
Səndən özgə nə nisgilim?
Darıxıram səndən ötrü,
Çağır məni, çağır gəlim!

...Elə sənin yanın olsun
Son ünvanım, son mənzilim!

## ÇOBANYASTIĞI

Gənclik illərində bahar gələndə,
Gəzərdik çəməni, gəzərdik dağı.
Bu qədər çiçəyin-gülün içində
Səni axtarardıq, çobanyastığı.

Toplardıq gülləri hey dəstə-dəstə,
Bəzərdi telləri çələnglərimiz.
Sonra da uzanıb otların üstə,
Zümzümə edərdik qayğısızca biz.

Qəlbimiz əsərdi "sevgi" deyincə,
Hərdən yaxılardıq, hərdən yaxardıq.
Yolub ləçəyini biz bircə-bircə,
Sənə inanaraq fala baxardıq.

...Aradan əssə də vaxtsız küləklər
Məhəbbət dünyası yaşayır hələ.
Boşa çıxsa belə necə diləklər,
İçimiz bir ümid daşıyır hələ.

Bəzən eşqə bənzər yalan həvəslər,
Yıxılan divarmı, dağılan evmi?
Sorğuya-suala bürünüb hisslər,
Yenə də deyirik: "Sevir, ya sevmir…".

# *SƏNİN OLMADIĞIN HƏR YER - QƏRİBLİK!*

## AZƏRBAYCAN BAYRAĞI

Mən nə heykəl,
Nə də bir bez parçasıyam!
Mən sabahın,
Azadlığın carçısıyam!

Neçə şəhid dodağının
“Vətən" deyən harayıyam!
Anaların, ataların oğullardan gözlədiyi
Xoş qələbə sorağıyam!

Mərd əlində dalğalanıb
Hələ misli görünməmiş
Elə Zəfər çalasıyam -
Tarixlərdə qalasıyam!

Zəfər üçün doğulmuşam!
Arzunun Zəfər çağıyam;-
Mən müqəddəs,
Yerə enməz
Azərbaycan bayrağıyam!

## AZAD ELİM – AZƏRBAYCAN!

Ulu Yurdum, ellərinin əskik olmur heç bəlası,
Ulu Yurdum, başındakı nədir, bəxtin güc-bəlası?
Harda qaldı bu torpağın qisas alan qoç balası?
İğidlərin ayaqlansa yerdə qalmaz tökülən qan!
Tarixlərə həkk olunsun azad elim Azərbaycan!

Nə biləcək yurd qədrini, - keşiyini çəkməyənlər,
Öz müqəddəs torpağında bircə ağac əkməyənlər!
Ucalarmı şəhidliyə bir damla qan tökməyənlər?
“Ana Vətən” kəlməsindən sinələrə sığışmaz can!
Tarixlərə həkk olunsun azad elim Azərbaycan!

Ürəyimiz param-parça, köksümüzdə şəhid dağı!
Bülbülümün vətənində yuva qurub bayquş yağı.
Hardasınız, ər igidlər, geri alın Qarabağı!
Qalibiyyət xəbərini qoy eşitsin bütün cahan!
Tarixlərə həkk olunsun azad elim Azərbaycan!

## ÇAĞIR MƏNİ, ƏZİZ BAKIM!

Bakım mənim!
Darıxmışam!
Bəs sən necə? Darıxmısan, əziz ana?
Axı, mən də sənin isti qucağında doğulmuşam,
mən də sənin övladınam.
Razı olma
küləyinə, yağışına həsrət qalam!
Rəva bilmə
torpağına, günəşinə həsrət qalam!
Sənin üçün bir olmalı övladların -
Sən anasan!
İstəyirəm mənimçün də, az da olsa darıxasan.

Səncə bütün əzablara dözə bilən canammı mən?
Gərək elə qürbətlərin soyuğunda donammı mən,
həsrətinin alovunda yanammı mən?
Səslə məni, Bakım mənim!
İsit məni üşüyəndə.
İkinci bir nəfəsim ol,
bu tərs-avand yollarda mən
yorulanda, tövşüyəndə.
Məlhəm eylə
ürəyimin “Vətən” adlı yarasına!
Qoy, küləyin sığal çəksin
saçlarımın həsrətindən dən gətirən qarasına.

Çağır məni, əziz Bakım!
Əziz anam!
Axı, mən də sənin isti qucağında doğulmuşam -
Mən də sənin övladınam!

## CANİM VƏTƏN!

**Ö**vladları dərbədiyar,
Torpaqları dağım-dağım,
Ümidləri param-parça olan Vətən!
Gözü yolda,
Ümidləri bircə zəfər harayına
qalan Vətən!
Ağrıların necə yaman,
Yaraların necə dərin!
Hanı sənin igidlərin,
Hanı sənin ərənlərin!
Ağlasığmaz bu dərdlərin,
dəhşətlərin
öhtəsindən necə gəldin,
Anam mənim?
Doğma diyar!
Talesizim!
Hər bir şəhid balanın da öz yeri var
sənin böyük ürəyində -
sızıldayır sızım-sızım!
Bilirəm mən,
Canım Vətən!
Anasını qorumayan oğulları doğan Vətən!
Kədərini ağartmayıb sinəsində boğan Vətən!
Övladları dərbədiyar,
Torpaqları dağım-dağım,
Ümidləri param-parça olan Vətən!

## SON İSTƏYİM OLACAQSAN

Səni görmək istəyirəm, mənim Bakım!
Gözəl şəhər!
Gəncliyimin yadigarı!
İstəyirəm geri dönüm ocağına mən bir səhər...
Tərk eləyim
qar-boranlı bu diyarı.
Sənsən mənim ilk sevgilim,
ilk sevincim,
ilk nisgilim!
Vəsf edərək söz yazdığım,
qucağında od gəzdiyim!
Elə səni düşünürəm
qürbət eldə bir tikəmi böləndə də,
həsrətinə dözməyərək qucağına gələndə də.
Son istəyim olacaqsan,
Son umduğum olacaqsan,
Son andığım olacaqsan
öləndə də!

## VƏTƏNİNİ DANANLARDAN İNCİYİRƏM!

İncimirəm, məndən uzaq duranlardan,
İncimirəm, qeybətimi qıranlardan,
İncimirəm, adi aravuranlardan,
Kürəyimdən vuranlardan inciyirəm!

İncimirəm, mənə əyri baxanlardan,
İncimirəm, hər tərəfə axanlardan,
İncimirəm, qurduğumu yıxanlardan,
Ümidimi qıranlardan inciyirəm!

İncimirəm, mənə yalan deyənlərdən,
İncimirəm, özlərini öyənlərdən,
İncimirəm, müftə çörək yeyənlərdən,
Haram tikə yeyənlərdən inciyirəm!

İncimirəm, məni darda atanlardan,
İncimirəm, tikan kimi batanlardan,
İncimirəm, sözü baha satanlardan,
Vicdanını satanlardan inciyirəm!

İncimirəm, məni yanlış qananlardan,
İncimirəm, həsəd çəkib yananlardan,
İncimirəm, dediyini dananlardan,
Öz dilini,
Millətini,
Vətənini dananlardan inciyirəm!

## QÜRBƏT SULARI

***Dəmir pul atmışdı qürbət suyuna***
***Bir də o yerlərə qayıtmaq üçün.***
***M. İsmayıl***

Qürbətdə sulara pul atan qərib,
Nə olub, üstünü buludlar alıb!
Yenə, səpdiyindən dərdin göyərib,
Yerdə qalanları solub saralıb...

Eh, dostum, dəyişib o sən görənlər...
Çoxdan uzaq olub yaxın hayanlar.
Nə bilsin vətəndə ömür sürənlər...
Dərdindən, qürbətə düşənlər anlar.

“Gedişin səbəbsiz” deyərlər sənə,
Qayıtmaq yolunu göstərən olmaz.
Ümidin dolaşar fələk çərxinə,
Elə tapdanar ki, yeri də qalmaz.

Gözlərin yol çəkər səssiz, səmirsiz,
Nəyisə gözlərsən can həsrətiylə…
Vətəndən arxana düşsə də bir iz,
Qürbət divar olar əsarətiylə.

Şaxtalar ruhunu qılınctək kəsər,
Solarsan anasız körpələr kimi.
Orda nə Gilavar, nə Xəzri əsər,
Susarsan oxunmaz nəğmələr kimi.

Deyərsən: “Təbiət gələr insafa,
Qayıdıb dönərəm doğma ellərə...”
Səni götürərmi çəkdiyin cəfa
O səndən xəbərsiz ötən illərə?

Səni uzaq salan bivəfa yollar
Eh, hələ çoxunu uzaq salacaq...
Qürbət sularına atdığın pullar
Elə arzular tək yatıb qalacaq...

## SƏNİN OLMADIĞIN
## HƏR YER - QƏRİBLİK!

*Ustad Məmməd İsmayıla*

**K**eçib neçə payız, keçib neçə yaz,
Unutmaq asanmış gözdən itəni...
Qəribdən savayı kimsə anlamaz
Necə özləmisən Ana Vətəni!

Məhəbbət payladın, qəmə qarışdın,
Duyğular içində duyğu payın var.
Getdin, qürbət ellə elə barışdın -
Vətən həsəd çəkib səni arzular!

Səsini gətirsə bir qərib külək
Nigaran fikirlər durub dincələr.
Sözünün sehrindən titrəyər ürək,
Ruhlar o dünyadan qayıdıb gələr.

Bu qarı həsrətin ömrü minillik...
Qəhr olub nə qədər ümidlər sönüb.
Sənin olmadığın hər yer - qəriblik!
Sənin olduğun yer Vətənə dönüb!

Zəmanə dəyişər, səbr elə hələ,
Qismət əl uzadar gözdən itənə.
“Sellər” cuşa gələr, insanlar dilə,
Dönərsən sevdiyin Ana Vətənə!

## QÜRBƏTƏ GEDƏN KİŞİ

Səni kimdən soruşsun
yazıq ağbirçək anan -
o gözüyaşlı qadın?
Evdə hər gün, hər saat
"ah"la çəkilir adın.
Hər dəfə söz düşəndə
qohumlara, yadlara
nə cavab versin axı
"yarım" dediyin yarın?
Gözləri yolda qalıb
bir günahı olmayan körpəcə balaların!

Yad ellərdə puç olub, alışmamış həsrətə,
Səni gözləyənlərin
nisgili, intizarı çevrilməmiş nifrətə,
Qayıt!
Olma veyil sən!
Peşiman olanlardan
nə birinci deyilsən,
nə sonuncu deyilsən!
Köçəri quşlar belə
bir gün geri qayıdır,
Budur dünyanın işi!
Qayıt öz ocağına,
Qayıt yar qucağına,
Qürbətə gedən kişi!

## QƏRİBƏ DOSTUM

Həyat qəribədir, qəribə dostum!
Heç kim keçmişinə qayıda bilməz.
Bir günah işlədən deyir unudum,
Vicdanı var isə, unuda bilməz.

Bir közü salarsan əgər əlindən,
Düşdüyü məkanı yandırıb yaxar.
Gizlənə bilməzsən əməllərindən,
Sənə dünənindən neçə göz baxar.

Elə bil, kini var soyuq daşın da,
Tapdanıb, sonradan sinəyə düşər.
Fərqi yox - nə qalıb qan yaddaşında,
Bizli də, bizsiz də günlər ötüşər.

Həqiqət incələr bəzən sap kimi,
Amma ki, üzülməz – qaydadır bu da.
Qəlbiylə düz olan neynir hakimi?
“Artıq içiləndə dərd verər su da.”

Bəzən çəkdiyimiz böşuna gedər,
Min ahın tək bircə dərdi əritməz.
Bir gün günahsızın göz yaşı bitər,
Amma günahkarın çiləsi bitməz!

## QƏRİB BİR AXŞAM

Yenə axşam düşüb, qərib bir axşam...
Qərib ürəklərin dolduğu vaxtdı.
Uzaqdan baxana bu - adi yaşam,
İçindən çəkənə - bir qara baxtdı.

Ulduzsuz səmanı bürüyübdü sis,
Dolmuş gözlərimə görünmür ay da.
İllərdi gümana aldanırıq biz:
“Bəlkə bu baharda..., bəlkə bu yayda...”

Əcəl də qürbətə yol açılb bu il,
Seyrəlib dostların səfi, sırası.
Vallah, qorxduğumuz ölümdən deyil...
Onsuz da öldürüb Vətən yarası.

Qorxuruq yad eldə tapşıraq canı...
Elə qərib kimi bükülək ağa.
Bir də görəmməyək Azərbaycanı...
Gömülək bu ögey, soyuq torpağa.

Bizləri qorxudan bu acı həsrət
Qışın buzundan da soyuqdu, sərtdi.
Qərib həyatımız özümüzə dərd,
Qərib məzarımız dostlara dərddi.

## ŞƏHİD QARDAŞ!

*20 yanvar şəhidi,*
*şair Ülvi Bünyadzadənin xatirəsinə*

Bir qiyamçı ömrü düşüb taleyimə...
Qiyamçıyam!
Haqsızlığa, rəzalətə,
dayanmıram...
Üsyançıyam!
Baxan yoxdur gileyimə,
üzülürəm,
Haqq yolunda əzilirəm!
Susammıram -
saxtakarlar həqiqəti danan yerdə.
Susammıram -
insanların ürəkləri dərd əlindən yanan yerdə.
Haqsızlığa çoxlarıtək
mən də baxıb keçəmmirəm!
Cəlladların qan qoxulu əllərindən
badə alıb içəmmirəm!

Bir qiyamçı ömrü düşüb taleyimə...
Tapdaq olmuş torpaqlarəm qan ağlarkən
mən toy-büsat edəmmirəm.
Haqq yolunda ölənlərin məzarından
Üz çevirib gedəmmirəm.
Sakit-sakit baxammıram
solğun şəhid balasının üzünə mən.
Bu millətin dərdlərinə dözəmmirəm,
sarsılıram ürəyimdən.

Sən də rahat yatammırsan,
Şəhid qardaş!
Günahsızca ölənlərin qanlarına
şahid qardaş!
İntiqamı alınmayıb daş məzarda yatanların!
Başlarına çevrilməyib sarayları
Vətənini satanların –
Rahat-rahat yatanların.
Torpaq, torpaq deyə-deyə
sinəsinə döyənlərin,
üstü bəzək, altı təzək işlər görüb
özlərini öyənlərin!

Arzuları, diləkləri nakam qalan
Şəhid qardaş!
Mənim ilə yaşıd qardaş!
Mən beləcə yaşayıram...
Acılarla tar-mar olan bu sinəmdə
iki ürək daşıyıram.
Rahat uyu!
Yazacağam ikimizin yerinə mən!
Yazacağam Vətənimdən, millətimdən...
Hər nə yazsam düz yazacam!
Namərdlərin sinəsinə köz, yazacam!
Dönməyəcəm öz yolumdan!
Elə mən də şəhid olum - söz yolunda!
Qoy, bir kimsə deyəmməsin
hisslərimdə yalançıyam.
Bilsinlər ki,
Nizamilər kökündənəm,
Nəsimilər soyundanam,
Üsyançıyam!
Üsyançıyam!

## YALAN

***Mərhum həmkarım***
***Rafiq Tağını anarkən...***

**<u>Ö</u>**türdüm günləri arxa-arxaya...
Həyat də yalanmış, zaman da yalan!
Gümanım var idi başqa dünyaya,
Ümid də yalanmış, güman da yalan!

Bəzən doğruya da inamım itir,
Qəlbimi şübhələr dağıdır, didir...
Bir söz yarasından bir ömür bitir,
Zəhər də yalanmış, ilan da yalan!

Qiymət verilmir ki işə, əməyə!
İnsan var, öyrəşib yavan yeməyə.
Dar gündə bir kimsə yetmir köməyə,
Ölən də yalanmış, qalan da yalan!

Aldanmaq olmazmış hər şirin dilə!
Pambıqla kəsilir baş, gülə-gülə!
İnsandan qorxmağa dəyərmiş elə!
İblis də yalanmış, şeytan da yalan!

## DOSTLARIMA

***Mərhum şair Sabir Abdullanın xatirəsinə***

Necə də uzağam ülfətinizdən...
Şöhrətim a dostlar, şanım a dostlar!
Bilsəz nə çəkirəm xiffətinizdən…
Ürəyim a dostlar, canım a dostlar!

Yadıma salıram yenə sizləri,
Eh, deyin heç yaddan çıxırsınızmı?!
Qalanda arxada ayaq izlərim,
Görən, o yollara baxırsınızmı?!

Gün çıxmır həsrətin köksünü yara,
Ötüşən saatlar bir il kimidir.
Bu qürbət ellərin günü də qara,
Gecəsi açılmaz dərd tilsimidir.

…Ayrılıq gizlicə sinəmi oyub...
Çəkirəm qəhrini qərib bir yükün!
Ölsəm, məzarıma bircə gül qoyub
Və bircə damcı da göz yaşı tökün!

# İKİ TARİX

*Mərhum jurnalist Ceyhun Nağının xatirəsinə*

**B**ir gün mənə dar bir otaq ayrılacaq...
Qapısına iki tarix yazılacaq.
Yazacaqlar - bir adımı, soyadımı,
bir də bəlkə,
nə zamansa, öz yazdığım
iki sətir fəryadımı...
Kimsə bir gün bir dəstə gül bağlayacaq,
Gələcəkdir ziyarətə.
Oxuyacaq o sözləri, dözməyəcək bu həsrətə...
Ağlayacaq...

İki tarix: olum, ölüm...
nə qədər az.
Amma ötür bu tarixlər arasında
Gör neçə qış, gör neçə yaz.
İnsan ömrü yaşanılır bu rəqəmlər arasında.
Keçən günlər sırasında
nələr olur, nələr... nələr...
Həyəcanlar, qəhqəhələr,
həm göz yaşı, həm də sevinc,
inciyənlər, incidənlər.
Amma hər şey gəldi-gedər.
Dilsiz olur
daşa dönən xatirələr...

## LAYLASIZ BALAMA

*(Hikmətə)*

Yandırır qəlbimi bir acı həsrət,
Ay ilkim, bir sevinc gözümdə qalıb!
Sənə vermədiyim qayğı, məhəbbət
Məni min əzaba, min dərdə salıb...

Kaş ki, ağlayaydən sabaha qədər,
Alıb gəzdirəydim qollarım üstə.
Sənli arzularım olubdu hədər,
Sənsizlik çıxıbdı yollarım üstə.

Tutmadı əlimi kicik əllərin,
Evi götürmədi hayın-harayın.
İcimdə dəfn etdim, bilsən, nələri...
Sinəmdə daş oldu sənin süd payın.

...Ananı baladan ayırmaq - günah!
Göynəyə-göynəyə qalmışam, Allah!
Laylasız balama hər axşam-sabah
Yanıqlı laylalar çalmışam, Allah!

## DÜNYA,
## SƏNİ NIYƏ SEVİM?

Dünya, səni niyə sevim?
Mənə bircə səbəb söylə!
Düşündükcə olanları
Əlləşirəm yerlə, göylə!

Dünya səni niyə sevim?
Qalxmaq olmur enişindən.
Fikirlərim qatqarışıq...
Baş açmıram gərdişindən.

Dünya, səni niyə sevim?
Sevilləsi nəyin var ki?!
"Sən mənimsən" deyə-deyə
Yaxın olmur uzaqlar ki?!

Dünya, səni niyə sevim?
Hanı əziz insanlarım?
Arzularım duman olub,
Boşa çıxıb gümanlarım.

Mələk donlu şeytanları
Tanımaqdan bezmədimmi?
Enişini, yoxuşunu,
Qürbətini gəzmədimmi?

Solmadımı çiçəklərim
Alaqların arasında?
Haqsızlıqlar tikan oldu
Ürəyimin yarasında!

Saxtakarlar, yalançılar
Məhəbbətdən danışırlar.
Bu yalanın alovuna
Saf ürəklər alışırlar.

Dünya səni niyə sevim?
Mənə bircə səbəb söylə!
Düşündükcə olanları
Əlləşirəm yerlə, göylə!

## BİR DURNANI VURDULAR...

*Qələm dostum İmdat Avşara cavab*

“**B**ir durnanı vurdular…
Ölümə doğru uçdu çölün vəfalı quşu”,
Ona ölüm gətirdi bu sonuncu uçuşu.

İsti-isti bilmədi köksündəki ağrını...
Qanadıyla sığadı o dəlinən bağrını.

Fəryadından baş alıb köç eylədi neçəsi...
Amansızın əlində qurğuşun bitmədikcə
Hələ çox zavallılar \bu yerlərdən köçəsi!

Bir güllə bir ürəyi al-qan etdi, dağladı,
Neçə ürək ağladı...

Vurulan səmalarda öz qanına bulandı,
Vuranlar hay-harayla yerdə büsat qurdular.
Dünyadan nə getdi ki? -
Bir durnanı vurdular...

## BİR İNSAN VAR DÜNYADA

Bir insan var dünyada,
bilirsən ki, o səni canından çox istəyir!
Nə qədər yorulsa da,
sən gəlib çıxmayınca, yollarını gözləyir.

Bir insan var dünyada,
öz ömrünü-gününü sənə qurban eləyir!
Bir dəfə çağıranda dilinə şəkər qatıb
yüz dəfə "can" söyləyir!

Bir insan var dünyada,
nəfəsilə isidib, canına can qatıb o!
Həzin laylalarıyla
sən yuxuya gedəndə, bəlkə bir az yatıb o!

Bir insan var dünyada,
gəncliyi solsa belə yenə tərdi, gözəldi!
Onun adı səninçün
hər bir addan şirindi, hər bir addan əzəldi.

Bir insan var dünyada
min bir dərddən qoruyur, kömək olur insana.
Bütün kainat bilir,
bu müqəddəs varlığın adı – ANAdır! ANA!

## SƏN GƏLMİSƏN, AY ANA!

Sən gəlmisən, ay ana,
Səfalar gətirmisən!
Gəlişinlə qızına
Dünyalar gətirmisən!

Günəş doğub qəlbimə,
Vətən ətirli anam!
Bayram gəlib evimə,
Gəlişi sirli anam!

Qurban olum ömrünün
Payızına, yazına.
Qanad açıb mən bu gün
Çıxmışam pişvazına.

O, nəcib əllərinə,
O, ağ telinə qurban.
Mehriban gözlərinə,
Şirin dilinə qurban.

Mənim üçün cavansan,
Dən düşsə də saçına.
Qoy ömrün uzun olsun,
Mən dolanım başına!

Ötüşən hər gün, hər an
Məndən ayırır səni.
Qəlbimdə qopur üsyan,
Bilir gedəcəyini...

Kaş ki, əlimdən gələ -
Uzadam bu günləri…
Bir keçirəm səninlə
Toyları, düyünləri.

Günəştək doğ qəlbimə,
Vətən ətirli anam!
Bahar gəlsin evimə,
Gəlişi sirli anam!

# BU GÜN – DOĞUM GÜNÜN!

*Rəfiqəm Həqiqət xanım Binnətovaya*

**B**u gün – doğum günün!
Xəyallarımda
Qürbətdən vətənə qaçmaq istədim;
Bacıntək boynunu qucmaqdan ötrü
Sənə qollarımı açmaq istədim.

Yaxınmı, uzaqmı vətənin yolu,
Niyə bir-birinə həsrətdir insan?
Ad günü keçirə bacın - sağ qolun,
Amma sən yanında olammayasan?!

Nə vardı, sevdiyin səndən xəbərsiz,
Uzaqdan uzağa səndə sən olsa;
Səadət - dediyin səssiz-səmirsiz
Hardasa yolunu gözləyən olsa.

Nə deyim, ürəyim sözlə doludur,
Yapış ətəyindən, Tanrıya tapın!
Əziz dost, ən böyük diləyim budur:
Xoş ana, xoş günə döyülsün qapın!

## BACIMSAN MƏNİM

*Həqiqət xanıma*

Sənə can deməyə alışıb dilim,
Canımsan, başımda tacımsan mənim.
İsti əllərinə öyrəşib əlim,
Bacılardan əziz bacımsan mənim.

Sanki birgə vurur ürəklərimiz,
Yaxşı nəyimiz var - başa çəkirik.
Qoşadır arzumuz, diləklərimiz,
Fikrimiz olanda qoşa çəkirik.

Həyatın min cürə dərdi-səri var,
Dеmərəm “mənimçün darıxma, yetər!”
Varsın özü bilsin ayrılan yollar,
Əlimi əlindən buraxma - yetər!

## YUXUYA GEDİB ŞƏHƏR

Gecə alır qoynuna
uca daş qəfəsləri...
Kəsilir yoldan-izdən
uzaq addım səsləri...

Məsum bir körpə kimi
yuxuya gedir şəhər...
Dalır şirin sükuta
təlatümlü küçələr...

Yanır bir-bir ulduzlar...
Yuxulu gözlər axır...
Kim bilir neçə insan
indi onlara baxır...

Bəxtinə qucaq açıb
ümidə göz dikən kim?.
Qismətinə tələsən,
yanılıb gecikən kim?

Yada nələrdi düşən
qaranlıqlar düşəndə;
Sevənlərin yerinə
kölgələr görüşəndə...

Heç yuxuya gedərmi
sabahı gözləyənlər...
Acı göz yaşlarını
balıncda gizləyənlər...

Hər kəsin bir həyatı,
hər kəsin bir bəxti var.
Hər şeyin öz sırası,
hər şeyin öz vaxtı var...

...Yenə bir körpə kimi
yuxuya gedib şəhər...
Dalıb şirin sükuta
Yarıoyaq küçələr...

# QIRX ÜÇÜNCÜ BAHARIM

Keçdi payız, ötdü qış
Əsdi ömür rüzgarım.
Gəldi məndən xəbərsiz
Qırx üçüncü baharım.

Gəldi, ala əlimdən
Sığınacaq yerimi -
Qopara dodağımdan
Gənclik nəğmələrimi.

Gizlicə yatıb qalan
Qorxunu sala yada.
“Ömür keçdi, gün keçdi”
Misalını oyada.

Düşə yanaqlarıma
Neçə cizgi, neçə iz...
Dayana qəlbimdəki
Çoşub-çağlayan dəniz.

Əlac nədir, həyat bu!
Yersizdir intizarım.
Gəlib artıq ömrümə
Qırx üçüncü baharım.

# *BU NÖMRƏYƏ ZƏNG ÇATMIR...*

## NƏDƏN MƏNİM DEYİLSƏN!

Nədən mənim deyilsən,
ey mənim ayrı dünyam -
Kövrək nağıllarımın ağ atlı şəhzadəsi!
Ey ağlımı çaşdıran,
başımı hərləndirən ətirli mey badəsi!
Xəyalını qurduğum,
baxışlardan sorduğum,
ey istəyim, ey arzum!

Bəlkə görmürsən məni,
Bəlkə görüb keçirsən?
Bəlkə də inamını itirənlər çox olub,
hələ ölçüb-biçirsən?
Kim bilir ürəyindən necə küləklər əsib...
Yoxsa ki, yollarını ölən ümidlər kəsib?
Sən – mənə nur gətirən,
kədərimi götürən
sevinc dolu fəsilsən!
Hər zaman gözlədiyim,
Tanrıdan gecə-gündüz yalvarıb istədiyim,
Nədən mənim deyilsən?

Bütün ömrüm uzunu təkcə sənin olmuşam
bunu bilməsən belə!
Yenə də sevəcəyəm məni sevməsən belə!
Bax, ömrüm, yolun üstə saf ürəklə çıxmışam…
Gəl!
Səni,
yalnız səni görməkçün darıxmışam!

## SEVDİYİM!

Ürəyimi döyündürən
bir qığılcım, bir təkansan.
Sevdiyim!
Bu dünyanın acısından gizləndiyim
xoş məkansan.
Sevdiyim!
Sən bir ümid adasısan
xilas olub nəfəsimi dərməyə,
Nə zamandır
yollarını gözləyirəm
sənə könül verməyə.
Açıl, açıl sabah kimi
ürəyimə qorxu salan
kölgələrin üstünə.
Uzat mənə əllərini -
dur həsrətin qəsdinə!
Alacaqsan məni bir gün
dərdin-qəmin pəncəsindən
bilirəm!
Hər gün bir az daha artan
inamımla
sənə doğru gəlirəm!

## GÖZƏL SEVMƏYİ ÖYRƏN!

**B**ilirəm ki,
mənimtək qəribliyin, təkliyin
qəmində boğulmusan...
Bilirəm ki,
görünüb qaya kimi, daş kimi
içində - ovulmusan...
Haqsızlığa, doğruya həsrət qalıb ürəyin,
Göylərə sovrulmusan...
Amma Səməndər kimi,
yanıb külün içindən
yenidən doğulmusan!

Mənim azad sevgilim!
Düşün,
bir yuxu imiş ötüb keçən necə il!
Düşün, bunca çəkdiyin,
yaşadığın əzablar
sənin ömründən deyil!
Səninçün bitdi artıq bu həyat imtahanı.
Dünyaya gözlərini yenidən açdığında
məni sev,
məni tanı.
Elə sev ki,
bu eşqi alqışlasın təbiət!
Sözünlə yaşat məni,
Eşginlə məni kövrəlt!
Bilmədiyin nə varsa sevgi səhifəsində
su kimi çək başına,
Baxma ömrün yaşına.

Məndən başqa hər şeyi,
amma hər şeyi unut.
Odlu kəlmələrinlə
donan könlümü ovut.
Günəş öz sevgisini
çiçəyə verən kimi,
Nurundan kainata çələnglər hörən kimi,
Üfüqlərdə dan kimi -
Al şəfəqlər saçaraq
Yeri oyadan kimi
Sən də oyat qəlbimi!
Daha bizə yar olsun incə, zərif duyğular!
Gəl! Gəl ki, gəlişinlə
məni həyata qaytar!
İstəyirəm eşqinlə qanad açım göyə mən!
İkimizin xətrinə
Gözəl sevməyi öyrən!

## SƏN O ZAMAN GƏLDİN Kİ…

Tənim buz bağlayanda
kimsəsiz otağımda,
Qəm cövlan eyləyəndə
soyumuş yatağımda,
Ümidimin işığı əriyən bir şam kimi
lap sonuna çatanda,
Həyat məni
qaranlıq boşluqlara atanda
Mən səni harayladım -
Sən o zaman gəlmədin!

Don vurmuş qönçə kimi
saralanda arzular,
Məni dara çəkəndə
bu cavabsız duyğular,
Taleyimin ulduzu köhnə çıraq sayağı
gözlərini qırpanda,
Qəddar zaman küləyi
hisslərimi didərək sağa-sola çırpanda
Mən səni harayladım -
Sən o zaman gəlmədin!

İntizarım, həsrətim kükrəyib qaynayanda,
Xoşbəxt günlər mənimlə gizlənpaç oynayanda
Mən səni harayladım -
Sən yenə də gəlmədin!
...Sən o zaman gəldin ki,
bu qismətsiz eşqimi
sevgisiz könüllərə sədəqətək payladım...

## SƏN YAŞAYAN ŞƏHƏRDƏ...

**A**ltı dəqiqə sonra,
sən yaşayan məkanda
gecə yarı olacaq!
Gözlərim telefonun kiçiçik ekranında -
Səndən xəbər gəlməyır...
Görən kim var yadında,
məni unutduracaq?

Ruhum uçur yanına,
"Ay vəfasız" deyərək
səni çağırmaq üçün.
Başqa zaman tapmadın
qəlbimi qırmaq üçün?

İki dəqiqə sonra
sən yaşayan şəhərdə
gecə yarı olacaq...
Sənsiz keçən gecətək,
səssiz açan səhər də
məni unutduracaq...

## O GÜNLƏRDƏN GƏLƏN DOSTUM...

**H**ərdən mənə elə gəlir -
ötüb-keçən saatlara qarışaraq
itmişəmmiş...
Sənsə məni axtarmısan.
Uzaqlarda qalan gözəl günlərimin
ən dəyərli anlarını
gəlişinlə,
bu günümə qaytarmısan.
Hərdən mənə elə gəlir -
nələrinsə həstərini çəkirəmmiş,
qəribsəmiş uşaq kimi...
Sənsə mənə yar olmusan.
Bu nisgilli ürəyimi ovutmaqçün
bəhanələr düşünməkdən bezməsən də,
yorulmusan...

O günlərdən gələn dostum!
Səni yaman özləmişəm!
Gec də olsa,
nə zamansa dönüşünü bildiyimçün,
səbr eləyib gözləmişəm.
Gəncliyimin saflığını, şuxluğunu,
ümidlərin çoxluğunu,
ürək dolu gülüşləri,
xoş niyyətli bu bəxtəvər görüşləri
mənə geri verən dostum!
Nə yaxşı ki, qayıtmısan
bu amansız zamanıma!
Mənim üzaqgörən dostum!

## BACARMIRSAN MƏNİM KİMİ DARIXMAĞI

Bacarmırsan mənim kimi darıxmağı -
İçin-için,
Titrək-titrək,
Və hərdən də
hayqırıqlar qoparan bir fırtınatək...
Gecə-gündüz yola-izə boylanaraq,
öz-özünə "Döz!" deyərək,
Nisgilini ürəyində gizləyərək...
Zaman-zaman ayrılığa üsyan edib
ağlayaraq,
kövrələrək...
Gözləməkçün min bir səbəb gətirərək,
Ümidini damla-damla toplayaraq,
ovuc-ovuc itirərək...

Daha nə  söyləyim axı;
Yox, incimə,
Bacarmırsan mənim kimi darıxmağı...

## BİRCƏ BAXIŞDAN

Uzaqda olsan belə,
Səni xatırlayanda
gözlərimdə bir işıq,
dodağımda təbəssüm addımlayıb keçirəm.
Eşqin - doğan Günəşdi!
Bu Günəşin nurundan doya-doya icirəm...
Qata bilsəm o anda
Dünyanın dünya boyda acısına, dərdinə
sevincimdən bir qaşıq -
Dərd qalmaz yer üzündə.
Sevgi deyil bəs nədir
bunca gözəl eyləyən
səni mənim gözümdə,
məni sənin gözündə!
Həsrətə dözməyənlər baxıb həsəd çəkirlər
hər əzaba doy gələn bu müqəddəs sevgiyə.
Qorxuram ki, göz dəyə...
Amma necə gizlədim –
bəxtiyaram, əzizim,
Səni bircə baxışdan belə sevmişəm deyə!

## MƏN KÖVRƏLMƏK İSTƏMİRƏM!

Mən kövrəlmək istəmirəm!
Dodağımı sıxa-sıxa dişlərimin arasında
Dondururam göz yaşımı gözlərimin qarasında.
Mən kövrəlmək istəmirəm...
Ağlamıram – düşünürlər çox güclüyəm,
Düşünürlər yoxdu dərdim.
Bilmirlər ki, bir dost olsa
Sirlərimi, dərdlərimi mən onunla bölüşərdim.
Daha məni qoy bəxtəvər sanmasınlar!
Qürurumu qorumaqçün zirvələrə ucaltdığım kimliyimə
Qibtə edib için-için yanmasınlar!
Yorulmuşam...
Mən bir çiyin istəyirəm söykənərək ağlamağa...
Gücüm çatmır zaman-zaman
Məni sıxan hislərimi ürəyimdə saxlamağa.
Kaş ki mən də heç duymasam...
Kaş ki mən də cahil olsam...
Çoxlarıtək çox şeyləri anlamasam.
Yeyib-içsəm, geyinsəm şıq...
Düşünsəm ki, bitən deyil
Bu dəbdəbə, bu yaraşıq...
Düşünsəm ki,
Pulum varsa, qüdrətliyəm,
Pulum varsa, hörmətliyəm.
Düşünsəm ki, dünya mənim,
Mənim - həyat!
Amma, heyhat...
Bu da bir yük –
Anlamaq ki, biz kiçiyik, kədər böyük!

## HƏR ŞEY GÖZƏL BAŞLAMIŞDI

Hər şey gözəl başlamışdı...
Filmlərdə olan kimi,
Çox romantik...
Bir nağıldı həyat sanki!
Möcüzəydi -
ömür boyu aradığım məhəbbətdi!
Belə sevmək
necə böyük cəsarətdi!
Nələr vardı
bu sevginin ümid dolu yollarında...
Səadətin qollarında
uyumuşduq...
Hər bir şeyə yad olmuşduq,
soyumuşduq:
Kainatda bir "biz" vardıq,
bir eşqimiz...
Xoşbəxtdik biz!
Üfüqlərin işarması,
ulduzların doğulması
sevmək üçün bəhanəydi,
İndiyədək olan bütün sevdalar da
bu hisslərin qarşısında
əfsanəydi.
Bizə kimi bəlkə hələ
belə sevən olmamışdı.
Hər şey necə cazibədar,
necə gözəl başlamışdı...

## SƏNİ SEVƏNƏ KİMİ

**M**ən ünvansız,
kimsəsiz bir sevgini sevirdim...
Səni sevənə kimi!

Məhəbbət vurğunuydum…
Təbiət vurğunuydum...
Uydurduğum aləmdə
xəyallarda gəzirdim,
xəyallardan bezirdim –
Tənhalıq yorğunuydum...

Sehirli gecələrin, nəşəli sabahların,
hisslərin, duyğuların,
sirlərin, günahların;
Dünyaca gözəlliyin,
cazibənin içində
susmuşdu qəlbin səsi…
Seviləsi aləmdə sevməmişdim heç kəsi -
Səni sevənə kimi!

## ÜRƏYİNDƏN İNCİMİŞƏM

İncimişəm
bir vaxt mənə
hər bir kəsdən doğma olan camalından!
İncimişəm
yuxumda da
məni rahat buraxmayan xəyalından!
İncimişəm
ayrılarkən sakit-sakit vida deyən dodağından!
İncimişəm
göz yaşıyla islanmayan
quru, soyuq yanağından!

İncimişəm
ümidimi parçalayan sözlərindən!
İncimişəm
buz baxışlı
o amansız gözlərindən!
Əllərimdən sıyrılaraq
uçub gedən əllərindən incimişəm!
İndi başqa bir nəfəslə
dalğalanan tellərindən incimişəm!

Eh... hamısı bəhanədir,
əlacsızam...
Sənə özgə nə deyim ki!
Xəyalının nə günahı,
Ondan niyə inciyim ki!
Bilirsənmi mən nəyindən incimişəm?
O sevməyi bacarmayan,
daş parçası – ürəyindən  incimişəm!

## BİR MƏKTUBUN VAR ƏLİMDƏ

**B**ir məktubun var əlimdə -
Səni ömrüm uzununca gözləməyə yetərli!
Bir məktubun var əlimdə -
Dünyaların incisindən, daş-qaşından dəyərli!
Bu məktubun hər bir sətri
mənim sənə deyəcəyim,
amma deyə bilmədiyim kəlmələr...
Niyə getdin?
Sən gedəli hüzur dolu həyatımda
düyün düşdü ilmələr...
Bir daha yaz!
Elə yaz ki,
qırılmasın mənim ümid açarım.
Hələ yaz ki –
sən gəlincə
xəyalınla yaşamağı bacarım!

**20.02.12.**

## BU NÖMRƏYƏ ZƏNG ÇATMIR!

*Jurnalist Tünzalə Vəliqızı üçün*

Köksünə məni sıxıb özgə üçün darıxan,
Gözləmədiyim anda əllərimi buraxan,
Arxa durmaq yerinə, bəzən büdrədib yıxan;
Sabahında bəlkələr,
Keçmişində kölgələr,
Bu günündə yalanlar,
Həyatında hesabsız, insan cildli ilanlar...
Daş ürəyin yiyəsi!
Bu qılıqla, bu şəstlə,
Bir kimsədə olmayan gözəlliklə, həvəslə,
Şeir dolu nəfəslə
Niyə gəldin ömrümə?

...Əlvida söyləyirəm
Içimdə yana-yana!
Eşqimi dana-dana bu oyundan çıxıram!
Sənə bir də aldanıb "canım" deməyim deyə
Dodağımı sıxıram.
Çox heyif!
Sevməyəcəm səndən özgə bir kəsi!
Cansız telefonumtək susub qəlbimin səsi.

İstəyirsən söyləyim, mənsiz neyləyəcəksən?!...
Qurtula bilsən əgər "şeytanların" əlindən
Yerimi çəkəcəksən...
Solub gedən dünyana elə dərd əkəcəksən.

Yığacaqsan xaincə unutduğun nömrəmi,
İllərin arxasından məni səsləyəcəksən,
Cavab gözləyəcəksən...
Deyəcəksən: “Bu eşqsiz həyatımda rəng çatmır!”
Amma yoxam mən daha dəstəyin o başında...
Yalnız eşidəcəksən:
“Bu nömrəyə zəng çatmır!”
… … …

## SİLİNMƏZDİR YAZILANLAR!

Mənim dilim apacıdır –
Həqiqətin özü kimi.
Sənin dilin şipşirindir –
Yalançının sözü kimi.

Bəlkə də mən
Sənin üçün vaz keçərdim hər şeyimdən -
Qorxmasaydım
addımbaşı mənə yalan deməyindən.
Elə sən də
alıb məni aparardın
heç bir şeydən çəkinmədən.
Qorxmasaydın
bu dilimin səni çala bilməyindən.

Sən deyirdin:
"Dalaşsa da, vuruşsa da
amma yenə
barışırlar, qovuşurlar – qismətləri bir olanlar.
Hara getsək,
nə də etsək
silinməzdir yazılanlar!"

Bitsin onda bu söz-söhbət!
Uçsun artıq həsrət-divar!
Qarşımızda ömrü birgə yaşamaq var!

## NƏ ZAMANSA... NƏDƏNSƏ…

Nə zamansa… nədənsə…
kimisə çox sevirdim...
Onu ruhən əkizim,
onu özüm bilirdim,
Uzaqda yaşayırdə ürəyimin sultanı...
Ömürdən saymayırdım onsuz keçən bir anı.

O mənim nur payımdı,
Mən onun günahıydım.
O mənim - hər zamanım,
Mən  məchul sabahıydım.
Ümidlə gözləyirdim  bir gün gələcək deyə...
Mən onu sevdiyimtək
məni sevəcək deyə.
İnanmaq istəyirdim – yuxum gerçək olacaq...
Bu qaranlıq həyatım dönüb göyçək olacaq.
Tək onu gözləyirdim bütün ömrüm uzunu,
Bilməsəm də yerini,
görməsəm də üzünü.

Bu titrək məhəbbətim əfsanəydi, nağıldı,
bitəcəkdi, bilirdim...
Amma, yenə kimisə…
nə zamansa… nədənsə…
Yamanca çox sevirdim!

## UDUZMAQ İSTƏYİRƏM...

Yadındamı,
"Hansımız daha çox sevirik" - deyə
yarışırdıq...
Zarafatla küsürdük, barışırdıq...
Səbəblər sadalayırdım,
bir-bir nidalayırdım….
Sənsə yenə də "Mən" deyirdin.
"Mən səni daha çox sevirəm" deyirdin.
Bu şıltaq mübahisədə
hər zaman qalıb gəlmək istəyirdin.
Bir də başlayaqmı?

Mən sənin sevgin oldum,
sənsə mənim ömürlük sevdam...
Mən sənin günəşin oldum,
sənsə mənim bütün dünyam...
Mən sənin ürəyin oldum,
sənsə mənim mənəviyyatım...
Mən sənin bircə əsərin oldum,
sənsə mənim bütün ədəbiyyatım...

Kim daha çox sevirmiş səncə?
Yenə də "Mən" de!
Uduzmaq istəyirəm...

## BƏZƏN OLUR...

Bəzən olur
darıxırsan...
Hər bir şeyə səssiz qalan
dörd divarda sıxılırsan...
Bəzən olur
yerli-yersiz deyilənə darılırsan,
Sussan belə öz içində qırılırsan...
Bəzən olur
daş-kəsəkdən keçib gedir,
düz yoldasa büdrəyirsən, yıxılırsan...
Ürəyində danışmaqdan yorulursan,
Bir kimsəyə arxalanmaq istəyərkən
puça çıxır ümidlərin,
can yerindən vurulursan...
Haqsızlıqlar səni didir...
Sən də dözə bilmədikcə
kainata üsyan edir,
bir hücrəyə yığılırsan...
Yaşamaqçün ümidlərə sarılırsan...
Bu dünyaya qucaq açıb vəsf edərkən
dünya səni almır vecə,
Sən də yanıb-yaxılırsan...

## ARZULARA ALDANMAYIN!

Ötənləri bitən bilib
Üzü doğru gələcəyə dayanmaq nə gözəl imiş!
Dadlı-şirin yuxu görüb gecə yarısı oyanmaq,
Həyəcandan min bir rəngə boyanmaq da...
Həyatında fırtınalar qopsa belə,
Hər tərəfə hiylə, yalan hopsa belə
Məhəbbətə inanmaq da!
“Nə zamansa olar”, - deyə arzu etmək,
Xəyallara dalıb getmək,
Ümidləri gəmi edib adiliklər dəryasında batmamaq da.
Yol gözləmək,
Həsrətini çəkdiyinin vüsalına catmamaq da
Gözəl imiş!

Vay o gündən,
Inanasan çatdığının həmin ünvan olmasına!
Baxmayasan o açdığın qapıların arxasına –
Nifrət dolu bir keşmişin zərbəsindən
Parça-parça olub sına ümidlərin,
Ləkə düşə bəyaz donlu sabahının yaxasına!
Bax o zaman,
Arayırsan əcəlini,
Ölüm belə şirin olur!
Arzulara aldanmağın yaraları hər yaradan dərin olur.
Yalnış düşən naxış kimi ilmə-ilmə sökülürsən,
Damla-damla kiçilirsən.
Təkliyinə şükür deyib öz qınına çəkilirsən.

## GECƏ YARIDAN KEÇİB

Gecə yarıdan keçib...
Kəsilibdir səs-səmir.
Niyə yatmırsan, - demir,
mənə yorğun gözlərim...
Nə bitir, nə tükənir fikirlərim, sözlərim.
Pişiyim də yorulub,
o da, gedir yatmağa...
Səs salmıram,
qıymıram kimsəni oyatmağa.
Kəkotulu, limonlu bir fincan da çay süzüb
köçürürəm vərəqə qəlbin zümzüməsini,
küləklərin səsini,
Hələ də əriməyən bu qürbətin qarını,
vətənin baharını,
Duyğuların dilini,
dostların nisgilini...
Eh... yazıram nələrdən....
Nə qələmim yorulur,
nə ürəyim, nə də mən.
Baxıram pəncərədən
dayanaraq bir anlıq,
Eşik zülmət, qaranlıq!
Yazını bitirməmiş heç istəmirəm yatam.
Boylanıram saata...
İlhamım da gəlməyə hansı zamanı seçib...
Qələm - əmrə müntəzir,
Hisslərim - narahatdır.
Gecə yarıdan keçib
Bir gör neçə saatdır...

## ƏLVİDA DE!

Yorulmuşam...
Bircə anlıq məni dinlə!
Burax məni,
elə özün öz əlinlə!
Qaranlığı kəsib keçən
fikir kimi
dumanları yara-yara,
sən də çıx get uzaqlara...

Yadındamı?
Bir zamanlar
əllərindən alabəzək kəpənəyi
uçurmuşdun - yaşatmaqçün...
Bax, eləcə, burax məni!
Qumdan saray tikən zaman
barmaqların arasından
süzülən o qumlar kimi
sahildəcə burax məni!
Dönüb baxma keçmişinə,
unut məni birdəfəlik!
Bu şübhələr,
üzüntülər,
qoy, olmasın bir də mənlik!
Sən də olma, nə dünənki,
nə bugünkü!
Yorulmuşam daha çünki...

Əlvida de!
Azad elə!
Baş-başa qoy təkliyimlə!
Amma, amma sorma necə!
Mən də səni buraxıram öz əlimlə...
Çox asanca...
Çox sadəcə...
Get bu gecə!

## ÖYRƏŞ!

Sən də öyrəş
ümidlərin yoxluğuna...
Sən də öyrəş
qəm-qüssənin çoxluğuna...
Sən də öyrəş
arzuların boşluğuna,
gözlərinin yaşlığına,
səhər-axşam boylandığın
yolun, izin daşlığına.

Sarıl səni puç eləyən sonsuzluğa,
Sarıl səni çox qorxudan "onsuzluğa".
Qaranlıqlar həmlə etsə üzərinə,
heç çəkilmə, tut əlindən,
sarıl,
birləş!
Ağac yarpaq tökümünə öyrəşirsə,
Bədən belin bükümünə öyrəşirsə,
Dünya özü Yaradanın hər hökmünə öyrəşirsə -
Öyrəş, sən də!
Sən də öyrəş!

## BƏXT ULDUZU İSTƏYİRƏM!

**B**əxt ulduzu istəyirəm –
taleyimə işıq saça!
Bəlkə onda
ürəyimin bir küncünə sınıb düşmüş
arzularım qanad aça!

Bəxt ulduzu istəyirəm –
qaranlıqdan ala məni!
Kələ-kötür çığırlardan yayındıra,
Bir uğurlu,
nurlu yola sala məni!

## YAĞIŞ YAĞIR...

Yenə həmən o söyüdün altındayıq...
Yağış yağır
narın-narın,
aram-aram...
Yadındamı, sənə o vaxt deyirdim ki,
"Yağışla heç yoxdur aram".
Qəribədir!
Sevmədiyim yağış indi
sənlə birgə olmağıma bəhanədir,
Bilirəm ki, gedəcəksən kəssə yağış.
Qoy kəsməsin!
Daniş, canım, yenə danış!
Buraxma heç əllərimi,
gözlərimlə qayna-qarış...
Mənlə barış!

Yağış yağır
narın-narın,
aram-aram...
Bu mehriban yağış üçün bulud dolu səmalara,
minnətdaram.
Gizlədirlər yanağıma oğrun-oğrun
damcılayan göz yaşımı…
Qaldırmıram mən başımı,
hey boşalır dolur gözüm...
Silmirəm də gözlərimi –
istəmirəm əllərimi səndən üzüm...
İstəmirəm səni üzüm...

Əbədilik heç nə olmur!
Bu yağış da necə olsa kəsəcəkdir,
Soyuq həsrət küləkləri
əsəcəkdir.
Daha yalnız, xəyallarda
bu söyüdə daldalanıb duracağıq...
Ayrılığa səbəb olan “bəlkə”ləri
özümüzdən dönə-dönə soracağıq.
Salxım söyüd dözməyəcək dərdimizə,
çökəcəkdir.
Bizdən başqa bir kimsəyə açmamaqçün qucağını,
yarpağını tökəcəkdir,
bilə-bilə...
Amma hələ...

Yağış yağır
aram-aram...
narın-narın...
Hər damlası elə bil ki, göz yasidir
son görüşü olanlarin...

## ...HƏR UNUTMAQ ISTƏDİKCƏ

Ayrılmışıq...
İki gündür səni guya unuduram.
Sevgimizin açarını var gücümlə atıb suya,
həsrətindən öldüyümü duya-duya... unuduram...

Unuduram
köksüm altda sevən ürək olduğunu.
Unuduram
varlığımın kimə isə hələ gərək olduğunu.

Aldadıram öz-özümü
"yox, sevmirəm" deyə-deyə.
Başqa dünya axtarıram
inadımın qapısını döyə-döyə.

Gecədimi, sabahdımı... - fərq etməyir...
ağ ya qara...?!
Ayrılmışıq, amma yenə sənə sarı çırpınıram
boşluqları yara-yara.

Yenə təkrar yandırıram
söndürdüyüm telefonu.
Elə bil ki, divarlar da haray salır, -
qaytar, qaytar, deyir, - onu!

Zaman sanki hey geriyə çəkir məni,
o günlərə can atıram.
Nədən səni hər unutmaq istədikcə,
incikliyi unuduram?!

## SƏNİ BU GÜN ANLADIM

Bilirəm,
mənə qarşı xəyallara qarışmış
bir hiss qalıb içində…
Sevgin hanı
Yəqin ki, aparmısan özünlə
elə son gedişində.
Səni bu gün anladım...
Görürsən, danışarkən
indi əsmirəm daha...
Səni bir də görməkçün
tələsmirəm sabaha...

Ümidlə yaşayırdım,
qəlbimdə bir yalvarış -
bağışlanmaq istəyi...
Sənsə, inad üzündən
əfv etməzsən heç nəyi.
...Qəribə duyğudur bu!
Səni bu gün anladım...
İsrar etdiyim üçün
özümü də danladım...
Nə asanmış, deyilmi,
belə sakit dayanmaq?!
Bir qurtuluş yoluymuş
bu yuxudan oyanmaq.
İstəmərəm bir daha
sevgi oduna yanmaq!
Sənin oduna yanmaq!

## MƏNİ BİR DƏ SEVƏRSƏNMİ?

**M**əni bir də sevərsənmi
ikimizin xatirinə?
İstəmirəm
çoxlarıtək
dönək sevgi qatilinə...
İstəyirəm canlandıraq
buza dönən arzuları,
Cavablayaq yatıb qalan
sualları-sorğuları.
Gəl, yaxın gəl!
Nə zamandır yol gözləyən
vüsalımız şirin olsun!
Harda olsan
yanındakı qoy mən olum!
Harda olsam
yanımdakı yenə sənin yerin olsun!
Söylə indi,
o alovlu ürəyini
mənə bir də verərsənmi?
İkimizin xatirinə
məni bir də sevərsənmi?

Gəl, barışaq!
Ruhumuzu ayrılıqda öldürməyək.
Gəl, barışaq!
Özgələri bəxtimizə güldürməyək.
Hicran qara bulud kimi
gərilməsin üstümüzə.
Gülümsəyib baxanda Ay
qanad taxıb eşqimişə,

yenə uçaq göylərə biz...
Yenə olaq ən bəxtəvər yer üzündə!
Qoşa baxaq yerlərə biz
mavi səma dənizindən...
Bir zamanlar
vəd etdiyin ulduzları
mənim üçün dərərsənmi?
İkimizin xatirinə
məni bir də sevərsənmi?

Bax, sənə də yoxdur həyat,
Mən bilirəm, məndən ayrı.
Bax, mənə də yoxdur həyat,
mən ölürəm səndən ayrı!
Ver əlini,
addımlayaq sabahlrın qucağına.
Gəl, üz tutaq, ay sevgilim,
sevgi-ülfət ocağına.
Hazırsanmı
bu sevdanın sınağından çıxmağa sən?
Nə deyirsən,
bu dünyanı
yenə mənim gözlərimlə görərsənmi?
İkimizin xatirinə
məni bir də sevərsənmi?
Sevərsənmi məni bir də
sevgimizin xatirinə?

***

Gəl,
dava eləyək!
Gəlim,
dalaşaq!
Bu səs-küy sükutdan gözəldi məncə.
Küsüşək,
Ayrılaq,
Sonra barışaq, -
Beləcə yaşayaq elə... ölüncə!

## SUAL

Övladların bədbəxtliyi -
anaların qəlb yarası...
Anaların günahları -
övladların üz qarası...
Böyüklərin günahları
o dünyada özlərindən sorulsa da,
bu dünyada
balaların göz yaşına qarışacaq...
Yer üzünə bir səhv kimi gələn övlad,
anlayarkən "ana"sından
görən nələr soruşacaq?!
Şəhvətinin qulu olmaq
bir insanın sındırılmış taleyinə dəyəcəkmi?
Bədbəxt edib xoşbəxt olmaq istəyənə
kimsə "ana" deyəcəkmi?

## DÜNYADA BEŞ QADIN VARSA

Dünyada beş qadın varsa,
beşini də tanıyıram...
Bəzisinə Ana kimi səcdə edib,
bəzisini ürəyimdə qınayıram...
Dünyada beş qadın varsa,
hər birisi
gözəlliyin, təmizliyin rəmzi kimi ucalmalı!
Bir ismətli xanım kimi yaşamalı,
bir nurani nənə kimi qocalmalı!

Dəyişibdir amma zaman...
Bu amansız dünyamızda,
nə yazıq ki, yetmir gücüm beş qadının namusuna and içməyə...
Beşini də müqəddəslik zirvəsinə ucaldaraq,
başımıza tac etməyə.
Nə yazıq ki,
kimlərinsə ocağına kül üfürən "şeytan"ların hesabı yox...
Nə yazıq ki,
kimlərinsə balasını atasına həsrət qoyan
"qadın" cildli ilanların heç bir vicdan əzabı yox!

Xoşbəxtliyi
kimlərinsə bədbəxtliyi üzərində quranlar var...
İsmətini, paklığını tapdalayıb,
qardaş-bacı ümidini qıranlar var...
"Ana" adı arxasında gizlənərək
neçə-neçə oyunlardan çıxanlar var...
İnsanların evlərini yıxanlar var...

Kişilərin papağını yer altına soxanlar var...
.... Nə dəhşətdir!
Dilləri də necə uzun,
Üzləri də necə "ağ"dır!
Belələri Azərbaycan Qadınının sinəsinə qara dağdır!

Dünyada beş qadən varsa,
hər birisi
gözəlliyin, təmizliyin rəmzi kimi ucalsın qoy!
Bir ismətli xanım kimi yaşasın qoy!
Bir nurani nənə kimi qocalsın qoy!
Beşini də gözümüzü yerə dikib tanımayaq!
Hamısına Ana kimi səcdə edək!
Heç birini
Heç birini qınamayaq!

# XƏYAL QIZCIĞAZ

*(Nigar üçün)*

Kövrəlirəm...
Xəyalımda yumuşacıq kiçik bir əl
tellərimə sığal çəkir asta-asta...
Sığınaraq həsrət dolu ürəyimə
dərdlərimi unutdurur
usta-usta.
Uyuyuram...
Yuxularda bir qızcığaz "ana" deyir,
yanağımdan öpüş alır.
Oyanınca bu nəvaziş
məni min bir tərəfimdən dara çəkir,
dərdə salır.
Əllərim də buz kəsilib,
titrədirəm gecənin bu yarısında.
Saatlarla dua edib yalvarıram
pəncərənin qarşısında;
Varmı indi məni görən?
Varmı indi məni duyan?
Eşit daha!
Oyan, sağır bəxtim oyan!
... Gecə sakit,
ətraf sükut...
Qəlbimdəsə burulğanlar, təlatümlər...
Çəkən bilər!
Mürgüləmək istəmirəm...
Oyadacaq məni bu lal iniltilər.

Nə edim mən?
Barmağıma duzmu basım?
Ürəyimə buzmu basım?
Dəlirirəm!
Gözlərimdə
məni hər an sızım-sızım sızladacaq o yuxunun
qorxusu var...
Qulağımda bir körpənin ana səsi,
Üzərimdə hələ də süd qoxusu var...

## GEDƏCƏYƏM!

**H**əyat məni dalğa kimi sahillərə çırpa-çırpa
təmizləyir, öz ağlınca,
Bəs etməyir...
Əlbəyaxa çarpışımda ümidlərim qaralınca
Pəs etməyir.
Ərşə çəkir
tapınmağa, tutunmağa nəyim qalsa...
Bu döyüşü bəlkə çoxdan uduzardı
hər kim olsa!
İstəyim də, mətləbim də,
sevincim də daşdan çıxır.
İnamımın zərrə boyda qığılcımı
bilməm necə tab gətirib qışdan çıxır?!

Sən ey həyat!
Ürəyimin nə zamandır yaşadığı o yerlərə
bir gün mən də gedəcəyəm!
Gerçəyimlə yuxularım,
Qismətimlə arzularım görüşəndə gedəcəyəm!
Gedəcəyəm,
ümid taxıb mavi rəngli bəxt quşunun qanadına!
Heç yorulma!
Gedəcəyəm,
yaşanmayan günlərimin inadına!

# *DİLLƏNDİR DƏRDİMİ SİMLƏRİN ÜSTƏ!*

## AŞIQ, "YANIQ KƏRƏMİ" ÇAL!

Aşıq, "Yanıq Kərəmi" çal,
saf məhəbbət yada düşsün!
Şaxta vurmuş don ürəklər,
Qoy, alışsın, oda düşsün!

Hər pərdəsi məlhəm olsun
qəm bağlamış könüllərə.
Gah ağlatsın, gah kiritsin,
Dərdə ümid verə-verə.

Çal, bir az da cuşa gətir
aşıb-daşan selləri də.
Simlər kimi inildəsin
qəlbimizin telləri də...

Gözümüzdə yaş yerinə
sevinc nuru giləlınsin.
Hislərimiz cilalansın,
ürəyimiz təzələnsin.

Nakam eşqin havasıyla
sevənlərin könlünü al!
Qoy duyğular dilə gəlsin!
Aşıq, “Yanıq Kərəmi” çal!

## GÜMAN ƏBƏDİ DEYİL

Yel kimi uçub gedən, bizi bizdən aparan,
Bu qısa ömrümüzdən xoş anları qoparan,
Keşməkeşli, fitnəli, təlatümlü, nigaran
Zaman əbədi deyil, mən zamanı sevmirəm!

Getdiyimiz yolların var əyrisi, var düzü,
Həyatın iki səmti, dünyanın iki üzü...
Ümid dolu olsa da hər gecəsi, gündüzü,
Aman əbədi deyil, mən amanı sevmirəm!

Sevdalanıb birinə, - arxasınca gedirsən,
"Simurq quşu" misalı harayına yetirsən.
İnanaraq andına, nələr güman edirsən...
Güman əbədi deyil, mən gümanı sevmirəm!

## ANA, MƏNİ ƏZIZLƏ!

**K**abusdan oyat məni!
Qoynuna al yat, məni!
İncidib həyat məni!
Ana, məni əzizlə!

Nağılım yalan olub,
Ürəyim talan olub.
Neyləyim, olan olub...
Ana, məni əzizlə!

Yar dediyim yağıymış,
Şərbət verdi – ağıymış.
Eşqin qürub çağıymış...
Ana, məni əzizlə!

Ümidim can üstədi,
Əlacı yox, xəstədi.
Uşaq olmaq istədim,
Ana, məni əzizlə!

## BU QIŞ BİR GÜN BİTƏCƏK!

**M**ənim dünyam buludlara bürünüb,
Yollarımda qüssə, kədər sürünüb.
Üfüqlərdə bir işartı görünüb;
Gözləyirəm, çətin günlər ötəcək,
Səbr et, könlüm, bu qış bir gün bitəcək!

Zaman uçur, günlər bir-bir ötüşür,
Bayrağımda Ayla ulduz görüşür.
Tale yalnız kədərləmi bölüşür?!
Sevinc dəmi hayımıza  yetəcək,
Səbr et, könlüm, bu qış bir gün bitəcək!

Afaq Şıxlı - alov dilli od-ocaq;
Gözlədiyim Günəş bir də doğacaq!
İçimdəki zülmətləri boğacaq!
Ayrılıqlar ağ dümanda itəcək,
Səbr et, könlüm, bu qış bir gün bitəçək!

# DÜNYA YALAN DEYİL

*Şairə Zərəngiz Şıxlıya*

Cahil nə anlasın, aqillər bilər -
Ölüm həqiqətdir, bir yalan deyil!
Həyat qanunudur: gələn köç eylər,
Dünyada kimsəyə yer qalan deyil!

İstər günahsız ol, istər də cani,
Ömürlər içində sevinclər ani.
Nə qədər yazılsa, deyilsə "fani",
Dünya yenə gəncdir, qocalan deyil.

Əzəldən bunları biz bilə-bilə,
Yumub gözümüzü, gedirik elə...
Günlər həftlərə, aylarsa ilə
Dönsə də enmişlər ucalan deyil.

Səxavət - cənnətin gizli açarı!
Nəfsə qul olanın nə dostu, yarı?!
Nə qədər yığsa da dövləti, varı,
Yenə də nəfsindən bac alan deyil.

Kimin doğru yolu - qayəsi varsa,
Dilində duası, ayəsi varsa.
Əgər xeyir işdə sayəsi varsa,
Savab ömürlükdür, bircə an deyil!

Afaq, gəl bu qədər yorma özünü,
Anlayan tapılar ürək sözünü.
Öləndə Vətəndə yum ki, gözünü,
Qürbət sənin üçün ağlayan deyil!

## YANMA!

Bircə dostun - yüz dərdinə əlac eylər,
Bircə düşmən - ömrü-günü tarac eylər.
Bircə yalan - yüz doğrunu xərac eylər...
Keçən dönməz, gedən gəlməz! Yanma, yanma!

Bircə damla - ümid verməz susamışa,
Bircə addım - yetməz yanlış yaşamışa.
Bircə üzür - bəs eyləməz aldanmışa,
Yaddaşını kimsə silməz! Yanma, yanma!

Bircə dua - savab edər nəzirini,
Bircə kəlmə - alt-üst edər hüzurunu.
Bircə nöqsan - silib gedər üz nurunu,
Namərd adam qədir bilməz! Yanma, yanma!

## DÜZÜLÜB GEDIR…

Ürək intizardan üzülüb gedir,
Məhəbbət ilmətək süzülüb gedir.
Qəribə bir zəncir düzülüb gedir –
Sən onu sevirsən, o da özgəni.

Onsuz ilə dönür ömrün hər anı,
Axtarma, bu dərdin yoxdu dərmanı.
Sərsən də önünə bütün dünyanı –
Sən onu sevirsən, o da özgəni.

Yorsan da gözünü yolunun üstə,
Dönsən də sağının, solunun üstə,
Yazsan da adını qolunun üstə,
Sən onu sevirsən, o da özgəni.

Nə nidan bitməyir, nə də ki, sorğun...
Arasan, o səndən daha da yorğun.
Bir ürək - vurulan, bir ürək – vurğun,
Sən onu sevirsən, o da özgəni.

## SƏN NEYLƏYƏSƏN?!

**B**ir hicran küləyi əsibdi yenə,
Yollar aramızı kəsibdi yenə...
Mənə boş xəyallar nəsibdi yenə -
Taledi, qismətdi...
sən neyləyəsən?!

Dilədim: xoşbəxtlik bir adət ola,
Sevmək könüllərə ibadət ola!
İstədim, bu gələn səadət ola,
Baxdım ki, həsrətdi...
sən neyləyəsən?!

Ümiddən körpü sal, göyqurşağıtək,
Ələnsin birvəbir yalanla gerçək.
Ölərsəm sevincdən mən səni görcək -
Bil ki, məhəbbətdi...
sən neyləyəsən?!

## UNUTMAQ ASANSA..

Nə deyim mən sənə, "unut " deyirsən...
Unutmaq asansa sən özün unut!
Acizsən, qismətə boyun əyirsən?
Unutmaq asansa, sən özün unut!

Səninlə keçirdi hər günüm, ayım,
Deyirdim, mənim də tapılıb tayım.
Heç demə, qəm imiş Tanrıdan payım...
Unutmaq asansa, sən özün unut!

Dilini sürümə! - söylə birbaşa,
Onsuz da qəlbimi vurmusan daşa.
İstəyin budursa, get mənsiz yaşa!
Unutmaq asansa, sən özün unut!

İncitmə gəl məni, var incidənim,
Bəxtimə yazılıb - gəlmir gedənim.
Ürəyin deyil ki, ürəyim mənim,
Unutmaq asansa sən özün unut!

Ayrılıq havası! – bu nə həvəsdi?
Sevgin də küləkmiş - bir əsim əsdi.
Yetər! Çəkdiklərim özümə bəsdi,
Unutmaq asansa sən özün unut!

Beləmi bitirmiş hər eşqin sonu?
Biçilib əynimə həsrətin donu.
Bir daha demə ki: "sevirdim onu"...
Unutmaq asansa sən özün unut!

Neyləyək beləyik: bu mən, o da sən!
Bağladın qapını hər umuda sən.
Səni unutmağı unutmuşam mən,
Unutmaq asansa, sən özün unut!

## HƏSRƏTİMİ ÇƏKƏRSƏN!

*"Bir gündə neçə dəfə sınağa çəkilərsən,*
*Həsrətimi çəkərsən, çəkərsən həsrətimi"*
*M. İsmayıl*

Özün sultanım idin, məhəbbətim – xəzinən...
Sənə bağışladığım sevginin əvəzi nə?
Soyuq-soyuq çəkdiyin adımın əvəzinə
Həsrətimi çəkərsən, çəkərsən həsrətimi!

Məni görüb yuxunda, qoymayarsan getməyə,
Göylərə yalvararsan, bu röya heç bitməyə!
Ümid dolu yol kimi - vüsalıma yetməyə
Həsrətimi çəkərsən, çəkərsən həsrətimi!

Ayrılıq səni sarar, əllərimin yerinə,
Üstünə ələnər qar, tellərimin yerinə.
Pəncərənə, tikdiyim tüllərimin yerinə
Həsrətimi çəkərsən, çəkərsən həsrətimi!

Cavabsız duyğulardan qaçmağa yer gəzərsən,
Peşmanlıq həvənginə qəm töküb dərd əzərsən.
Hənirsiz mənzilini şəkillərlə bəzərsən,
Həsrətimi çəkərsən, çəkərsən həsrətimi!

Sonsuz xəyallarımdır ürəyinə daşınan,
Unutmaq bir yalandır, çabaların boşuna!
Keçmişinin əlindən gizlənməkçün başına
Həsrətimi çəkərsən, çəkərsən həsrətimi!

## MƏNİ BURAXMA!

Bir gün sənə düşmən olsam,
Məni buraxma, buraxma!
Sevdiyimə peşman olsam,
Məni buraxma, buraxma!

Hicran bizə yas saxlasa,
Ürəyimiz qan ağlasa,
Əllərimiz buz bağlasa,
Məni buraxma, buraxma!

Qəlpə qalsa yaramızda,
Səf pozulsa sıramızda,
Dağlar olsa aramızda,
Məni buraxma, buraxma!

Gəl, qışımı yaza döndər,
İnadımı buza döndər.
Bircə kəlmə xəbər göndər,
Məni buraxma, buraxma!

Eşqim qəlbimin çatında,
Ahım göylərin qatında!
Ayrılıq çapır atında,
Məni buraxma, buraxma!

## SƏNƏ YAZDIĞIM SƏTİRLƏR

Ürəyimdən gələn səsdir,
Yaşamaqçün bir nəfəsdir.
Sənsizlikdə mənə bəsdir
Sənə yazdığım sətirlər.

Dualardı, alqışlardı,
Sevgi dolu baxışlardı.
Enişlərdi, yoxuşlardı
Sənə yazdığım sətirlər.

Nisgilimdi, kədərimdi,
Qazancımdı, hədərimdi.
Son taleyim, qədərimdi.
Sənə yazdığım sətirlər.

Qış çağında xoş bahardı,
Yay günündə soyuq qardı.
Məndən sənə yadigardı
Sənə yazdığım sətirlər.

Bir iz kimi basılacaq...
Ürəyindən asılacaq.
Yaddaşına yazılacaq
Sənə yazdığım sətirlər.

## DİLLƏNDİR DƏRDİMİ SİMLƏRİN ÜSTƏ!

A dostum, sazını al sinən üstə,
Sevdiyim havanı çal, qadan alım!
Ürəyim həsrətdən düşübdü xəstə,
Qalmayıb canımda hal, qadan alım!

Xoş bahar çağının yelindən oxu,
Sona gözəllərin telindən oxu,
Səfalı çöllərin gülündən oxu,
Dağları yadıma sal, qadan alım!

Qəmim qalanıbdır qəmlərin üstə,
Dilləndir dərdimi simlərin üstə.
Afaqam, dəm gətir dəmlərin üstə,
Ağlımı başımdan al, qadan alım!

## SƏN OLMADIN

Ürəyimin atəşi
Sən olmadın, olmadın!
Həyatımın Günəşi
Sən olmadın, olmadın!

Cəsarətim, taqətim,
Adım-sanım, şöhrətim,
Qollarımda qüvvətim
Sən olmadın, olmadın!

Varlığına şad oldum,
Özgələrə yad oldum.
Alov oldum, od oldum,
Sən olmadın, olmadın!

Ömrü duman, çən oldum,
Səadətdən gen oldum.
Özüm dönüb sən oldum,
Sən olmadın, olmadın!

Sənsiz bitmir niskilim...
Deməyə gəlmir dilim:
Sədaqətli sevgilim
Sən olmadın, olmadın!

## MƏN OLUM

**Y**ana-yana eşq oduna,
Dilədiyin yar mən olum.
Çağırasan öz yanına,
Gələmməsəm, xar mən olum.

Cəfasını bilə-bilə,
Qəlbində bir arzu dilə.
Çəmənində dönüm gülə,
Bağındakı bar mən olum.

Yaraşırmı sənə hüzün?
Mən gəlim ki, gülsün üzün.
Dilindəki şirin sözün,
Sinəndəki tar mən olum.

# SƏNİ

*Ustad Məmməd İsmayılın*
*eyniadlı şeirindən təsirlənərək*

Qəlbim sızlayanda bir yad elində
Səni gözləmişəm, bəlkə də səni...
Ölüb getməmişəm cəllad əlində
Səni gözləmişəm, bəlkə də səni...

Səadət yarıda atıb gedəndə,
Gəncliyim zamansız itib gedəndə,
Min insan yanımdan ötüb gedəndə,
Səni gözləmişəm, bəlkə də səni...

Hər dərdə, möhnətə baş əyəndə də,
Tutaş kipriyimi yaş əyəndə də,
Buz kimi nəfəsdən üşüyəndə də
Səni gözləmişəm, bəlkə də səni...

Üstümdə şimşəklər çaxılanda da,
Qəriblik başıma qaxılanda da,
Təklikdən ürəyim sıxılanda da
Səni gözləmişəm, bəlkə də səni...

Kədərin, nisgilin qəm ocağında,
Qürbətin bu soyuq, qış qucağında,
Bir sirli məhəbbət üçbucağında
Səni gözləmişəm, bəlkə də səni...

**22.02.12.**

## MƏNI

Sevgilim, gecikir bu il də bahar...
Gəl daha, bu qışdan oyandır məni!
Özümüz hardayıq, harda arzular...
Bəxtin zirvəsinə dayandır məni!

Nə səndən sonra var, nə səndən öncə,
Səninlə var olur bu dünya, məncə.
Onsuz da səninəm, sənin, ölüncə!
Nə atəşə qala, nə yandır məni!

Qəm çoxluğu sevər, zaman darılığı,
Hicrana ar gəlməz inadkarığı.
"Bizi yox etməsin yoxun varlığı!"
Eşqin varlığına inandır məni!

## HƏSRƏTİNİ ÇƏKƏCƏKSƏN

Sən dünyanın ən xoşbəxti olsan belə,
Bu sevginin həsrətini çəkəcəksən...
Könülləri gözəlliklə alsan belə,
Bu sevginin həsrətini çəkəcəksən...

Təntənəli gecələrə yar olsan da,
Təriflərin qanadında var olsan da,
Nərgiz kimi öz-özünə vurulsan da,
Bu sevginin həsrətini çəkəcəksən...

Dünyalara sığmasa da adın-sanın,
Təklənəndə səssizlikdən donar qanın.
Bir peşiman olmağı var hər insanın, -
Bu sevginin həsrətini çəkəcəksən...

Həyat səni saxlasa da göz üstündə,
Bağrın başı qovrulacaq köz üstündə.
Kövrələcək adicə bir söz üstündə,
Bu sevginin həsrətini çəkəcəksən...

Gün üzü var, çən üzü var hər dağın da...
Bahar ötər, qış qıvrılar yatağında.
Bir gün sən də durub ayna qabağında,
İntizardan titrəyəcək, əsəcəksən...
Bu sevginin həsrətini çəkəcəksən...

# *GƏRAYLILAR, QOŞMALAR – İLHAMLA QOVUŞMALAR*

## GÖNDƏRDİ

Tanrım göyə buludları,
Dağlara çəni göndərdi.
Bağlara heyvanı, narı,
Sünbülə dəni göndərdi.

Kim ki, sevdi canı dildən,
Göz yaşını tutdu seldən.
Azadlığı aldı əldən,
Ruhlara təni göndərdi.

Odur sahib yerə, göyə,
Yol açan arzu-diləyə.
İstəyim sevgiydi deyə -
Mənə də səni göndərdi.

## MƏN BƏXTİMİ UCA BİLDİM

Mən bəxtimi uca bildim,
Bəxtim yenikmiş, yenikmiş...
Dərdlərimi heçə bildim,
Dərdim böyükmüş, böyükmüş...

Gələcəyə çox inandım,
İçimdəkli səsi dandım.
Ümidimi alov sandım,
Oysa sönükmüş, sönükmüş...

Nələr tapdım, nələr itdi...
Bir inada hər şey bitdi.
Yarı yolda qoyub getdi -
Üzü dönükmüş, dönükmüş...

## HARADAN GƏLİR?

**B**ir ömür sənsizlik durub tuşumda!
Bəxtimin naxışı qaradan gəlir.
Nə yaxşı hələ də ağlım başımda...
Hər kəsə bu yaşam sıradan gəlir.

Dəyişməz alnıma yazılan yazı!
Nə qışı gözləməz, nə də ki yazı.
Qalıbdı qarşıda ömrümün azı,
Deyirəm, inanmır, yara dan gəlir.

Xəyalım süst düşüb - yorduğum yerdə,
Ümidim qırılıb - qurduğum yerdə.
Özüm daş olmuşam durduğum yerdə,
Kim bilir ürəyim haradan gəlir?

## KEÇ GÖZÜMÜN YAŞINDAN!

Dərdim - duman, həsrətinsə yel olmuş
Ürəyimi aparalı il olmuş.
Aşıb-daşıb aramızda sel olmuş, -
Bacarırsan, keç gözümün yaşından!

Qırmaq olmaz bir ümidi, bir andı!
Yaxşı-yaman çiynimizdə qalandı.
Bu nə zülüm! Ölüm belə yalandı!
Qatilimsən, iç gözümün yaşından!

Günüm çıxmır, eşqin bağı göy mamır...
Gözlərimdən ürəyimə hey damır…
Ömrüm mənim, daha dözüm tablamır!
Gözlərimi aç gözümün yaşından!

Nisgilimi desəm səbir daşına
Biçarə daş çatlayacaq boşuna.
Dörd tərəfi götürəcək başına, -
Qaça bilsən qaç gözümün yaşından!

## DODAĞINDA QALMIŞAM

Yuxularda buraxmazsan əlimi,
Xəyal olub otağında qalmışam.
Oxşayarsan balıncdakı telimi,
Tel-tel olub yatağında qalmışam.

Zindan olar sənə o dörd divarın,
Gəlişini duyammazsan baharın.
Hər yerdəyəm... qarşıdakı çinarın
Sənə baxan budağında qalmışam.

Eşqim - mərəz, sən əlində naçarsan,
Bu dərdini axı kimə açarsan?!
Unut məni, unutmağı bacarsan -
Sözə dönüb dodağında qalmışam.

## BAXIRAM

**<u>O</u>** - eşqimin günəşidir, mən - çiçək,
Gün batınca ona sarı baxıram.
Bükülmərəm vüsalına yetincə...
Gözümdədir  intizarı, baxıram.

Onu  bildim - həyatımın mənası...
Sevgisidir sözlərimin anası!
Yarım məndən gileylidi, mən – asi!
Yaxın edib uzaqları, baxıram.

Sirrimizi yadlar kimi danaqmı?
And vermədən inanmaq da qınaqmı?
Bu məhəbbət vaxtsız gələn qonaqmı,
Arxasınca gecəyarı baxıram?!

Qar tutmamış dörd yanımda düz, dərə,
İz düşməmiş qəlbimdəki izlərə,
Geç olmamış, bir də gələm sizlərə...
Özləmişəm o diyarı, baxıram.

## MƏNƏ "MƏLƏYİM" DE!

**<u>M</u>**ənə "mələyim" de, bir cüt qanad ver,
Eşqin göylərində uçum səninlə!
Qoşulsun təbrikə ulduzlar bir-bir,
Sabahı birlikdə açım səninlə!

Alışdır, atəşin yansın üzümdə,
Dolaşaq, gül açsın dağım, düzüm də.
Sən dolsan, buluda dönüm özüm də,
Gülsən, Günəş kimi saçım səninlə!

Beləcə, nur yağsın hər əməlindən,
Sevgi nəğmələri qopsun dilindən.
Məni elə sev ki, tutum əlindən,
Haraya deyirsən qaçım səninlə!

## SABAHIMA
## QAPILARI AÇMAQ ÜÇÜN

Canım-gözüm, sinə gərək olanlara,
Ağrılardan, acılardan qaçmaq üçün.
Yetər! - gəzdik xəyallardan xəyallara…
Qanad açaq nağıllara uçmaq üçün.

Sən gəlməsən mən beləcə tək qalaram,
Gəl ömrümə, ver könlünü, mən alaram.
Pərvanə yox, elə özüm od olaram
Yolumuza hər an işıq saçmaq üçün.

Sevgimizi etibarla saxlayaq, gəl...
Ağlasaq da, qoy sevincdən ağlayaq, gəl!
Dünənlərə pəncərəni bağlayaq, gəl,
Sabahlara qapıları açmaq üçün!

## SEVGİ – BİR HƏYATDIR!

Sevgi - bir həyatdır, yaşadır bizi,
Ömrünə bir həmdəm seç, seçə bilsən!
O, nurdur, bürüyür hər yolu, izi,
Sən də bu yollardan keç, keçə bilsən!

Sevgi - bir dünyadır: sənin və mənim!
Xoşbəxtəm! - var isə candan sevənim.
Həsrət sevgilərə olsa da qənim,
Acını şərbət tək iç, içə bilsən!

Sevmək könüllərin bir adətidir,
Sevgi – yaradanın səxavətidir.
Aşiqlik insanın səadətidir,
Dünyadan sevgiylə köç, köçə bilsən!

Bu dünya,
O dünya,
Bir də ikimiz,
Arada oyunu  heç-heçə bil sən!

## QAYTAR!

Bir vaxt düşməmişdi həsrət araya...
Məni o ayıma, ilimə qaytar!
İstərəm telimi bir də daraya, -
İsti əllərini telimə qaytar!

Baxıb gözlərinə, görüb özümü,
Ürəyim eşgindən alsın dözümü.
Sənə həsr edirdim hər bir sözümü,
O xoş nəğmələri dilimə qaytar!

Sən yoxsan, de qəlbim isinsin kimə?
Uçub əllərinlə qurduğun kümə.
İtən ümidləri sevən könlümə,
Ətri, təravəti gülümə qaytar!

Nə qəmin sonu var, nə də gümanın,
Məhbusu olmuşam mən bu zamanın.
Gəl, məni hifz eylə, varsa amanın,
Zülmün verdiyini zülümə qaytar!

Cüt qanad vermişdin daşıyım deyə!
Məhəbbət vermişdin yaşayım deyə!
Sənin olmadımsa yaşıyım niyə?!
Qaytar məni, gülüm, ölümə qaytar!

## TELLƏRİM

Amansız yellərə oyuncaq olub
Bir vaxt nəfəsindən əsən tellərim.
Üzünə dağılıb şəlalə kimi -
Hərdən əhədini kəsən tellərim.

Kim idi araya ayrılıq salan,
Sevən ürəklərdən ümidlər çalan?!
İndi pərişandı nigaran qalan
O, sünbül tellərim, süsən tellərim.

İntizar ruhumun qəddini əyir,
Ayrılıq vüsalın könlünə dəyir.
Mənə yoldaş olub səni gözləyir
Özü öz bəxtindən küsən tellərim.

## ÜRƏYİMƏ

Qəlbimə yoluydu - eşqinin yolu,
Salmışdın gizlicə iz ürəyimə.
İztirabla dolu, atəşlə dolu...
Elə bil, basmışdın köz ürəyimə.

Bir yanımda sevinc, bir yanımda yas...
Sənin tilsimindən varmıydı xilas?!
Açıb sirlərini, dedin: “qulaq as” -
Xəncərtək sancıldı söz ürəyimə.

Xilqəti vəfada sınamaq çətin!
Kimi dözümsüzdü, kimisi mətin.
Bir mənim cəfammış sənin həsrətin -
Hələ də deyirəm “doz”, ürəyimə!

“Gözlərin çağlayan sevgi dənizim...”
Gözündən uzaqda solur bənizim.
Dərdimi kiminlə bölüm, əzizim?
Hamısı sığmayır öz ürəyimə!

## SEVƏCƏYƏM ÖZÜM SƏNİ!

Məndən uzaq olma bir an,
Görə bilsin gözüm səni.
Gah aşikar, gah da pünhan
Vəsf eləsin sözüm səni.

Demə sənsiz ürək dözər,
Hər yanda arxanca gəzər.
Yollarıma sal bir nəzər,
Qoy gətirsin izim səni...

Bu dünyanın işığı bol,
Sən də mənim qəlbimə dol.
Həzin nəğməm, şeirim ol,
Sətirlərə düzüm səni.

Bir gül olub eşq bağında
Qalım bülbül sorağında.
Yanaqlarım yanağında -
Hiss eləsin üzüm səni.

Sən mənimsən, mən səninəm,
Eşqin ilə yanır sinəm.
Bu sevdadan çətin dönəm,
Sevəcəyəm özüm səni!

## SƏNİNTƏK

*Şair Elman Tovuza*

Bu aləmi qarış-qarış gəzənlər
Çöl-çəməni görə bilməz sənintək!
Min çəməndən min bir çiçək üzənlər
Gözəlini dərə bilməz sənintək!

Yaman çoxdu bəd niyyəti xoş bilən,
Bayquşu da bir uğurlu quş bilən.
Hər damcını gözdən axan yaş bilən
Könüllərə girə bilməz sənintək!

Qəm eləmə, balığı at dəryaya,
Haqq önündə muma dönər daş-qaya.
Hər doğulan bu qəribə dünyaya
Ürəyini verə bilməz sənintək!

## DAĞLARDA NƏFƏS AL!

*Şair Elman Tovuza*

**D**arılma, a dostum, Tanrıdan güc al,
Kədərin bağrını üzə biləsən!
Arzudan qanad tax, göylərə ucal
Nurlu asimanda süzə biləsən!

Ruhuna ruh qatım, tut əllərimdən,
Dağlarda nəfəs al, sən də dərindən.
Yenə o yerlərin çiçəklərindən
Qızların telinə düzə biləsən!

Ömrünün yolları olmadı çənsiz,
Bilirəm, darıxıb dağlar da sənsiz.
İstər mənim ilə, istərsə, mənsiz
Dediyin yerlərdə gəzə biləsən!

## BİZİK!

**B**əzən ətək kəsən, bəzən əl tutan,
Sonuncu tikəni bölən də bizik!
Torpağı pay verən, düşmənə satan,
Torpağın qədrini bilən də bizik!

Özgəyə yol verib, özü - yol azan,
Gah quyudan çəkən, gah quyu qazan,
Misli görünməmiş tarixlər yazan,
Tarixi yaddaşdan silən də bizik!

Haqdan danışanı asırıq dardan,
Namusu qoruyub keçirik ardan.
Özü-öz halına baxıb kənardan
Ağlayan da bizik, gülən də bizik!

Çölümüz günəşdə, içimiz çəndə…
Bəndəyə sultanıq, sultana bəndə.
Yoxsuldan, yetimdən dayanıb gendə,
Dar gündə imana gələn də bizik!

Təzadlar içində üzürük, nədən
Yola gedə bilmir bir başla bədən?
Vətəni tərk edib qürbətə gedən,
Vətənin yolunda ölən də bizik!

## GƏLMƏDİ SONU DÜNYANIN

Dünyamıza yaş kəsdilər,
Ha coşdular, ha əsdilər…
Dar kəfənə tələsdilər,
Gen oldu donu dünyanın.

“Tükənməzlər”, “ədəbilər”
Qəm üstündən qəm yedilər.
Fani, əyri, çaş dedilər,
Düz imiş yönü dünyanın.

Soluxdular, saraldılar,
Su aldılar, şam aldılar...
Elə haray-hay saldılar,
Qurudu qanı dünyanın.

Vaxt yetişdi, olan oldu...
Kalan yenə kalan oldu...
Axır ki, fal yalan oldu -
Gəlmədi sonu dünyanın!

## ÇALIŞ!

Həyat insanları vurur dişinə,
Xeyri nə, düşsən də varın peşinə?!
Qarışma dünyanın hər bir isinə, -
Sirrini anlayıb bilməyə çalış!

Əzəldən bilsən ki, "O"dur gərəyin,
Boşuna yerlərə dəyməz kürəyin.
Ümidin yox olsa, dursa ürəyin
Ruhunla birlikdə ölməyə çalış!

Gəl-gəl söyləsə də söhrət, yarasıq,
Hər yolun sonunda yanmaz ki, işıq.
Əhdinə vəfasız çıxdısa aşiq
Sən onu qəlbindən silməyə çalış!

Şeytan çənbərinə düşdüsə bəşər
Aqil insanı da çaşdırar bu şər.
Qəfildən bəxtinə bir düyün düşər -
Ürəyin ağlarkən gülməyə çalış!

Afaq, həsrətlisən Vətən ətrinə,
Hopur şeirinin hər bir sətrinə.
Əzizlər, yaxınlar, dostlar xətrinə
Qəlbini yüz yerə bölməyə çalış!

# YERƏ GÖYDƏN BAXMA, BALA!

*Oğluma nəsihət*

Yerə göydən baxma, bala,
Yerə yerdən baxmaq gərək!
Selə qarşı dursan əgər,
Quma dönüb axmaq gərək!

Dərdi çəkmə için-için,
Qulpundan tut işin-gücün.
Bir ocağı yaxmaq üçün
Daşı daşa çaxmaq gərək!

Yoldaş olmaz ağlı kaldan,
Uzaq dayan qeylü-qaldan.
Çörəyinə haram baldan,
Halalca şor yaxmaq gərək!

Boşa vermə zamanını,
Yaşa ömrün hər anını.
Məhəbbətin nişanını
Barmağına taxmaq gərək!

Polad kimi olsun canın,
Bulanmasın ruhun, qanın.
Vətəninə kəm baxanın
Dünyasını yıxmaq gərək!

## DÜŞMÜŞƏM

Haqqın verdiyi vədə -
Söz üstünə düşmüşəm.
Yanıb qismətə, dərdə,
Köz üstünə düşmüşəm.

Keçib "baxaq-görək"dən…
Sevən yoxdu ürəkdən.
Vurulmuşam kürəkdən
Üzüstünə düşmüşəm!

Ömür yolu dumanlıq,
Səadətim bir anlıq.
Bəxt deyilən - tikanlıq,
Düz üstünə düşmüşəm!

## ADAM VAR...

*“Adam var ki, adamların naxşıdır!”*
*Abbas Tufarqanlı*

Adam var, hər kəsin işini əyər,
Onunla yol getmək əzab əvəzi.
Adam var, varlığı dünyaya dəyər,
Hər sözü-söhbəti kitab əvəzi.

Adam var, fitnələr gəzər başında,
Adam var, mərdliyi qan yaddaşında.
Adam var, dilini bilər daşın da,
Susmağı bir doğru cavab əvəzi.

Adam var, çatmaqçün şöhrətə, ada,
Yolda qardaşını qoyar piyada...
Adam var, əl tutar yaxına, yada,
Bir işi min cürə savab əvəzi.

## BU HƏYAT -
## ÖMÜR-GÜN SAVAŞI İMİŞ

Tufanlar torpağın harayı, ahı,
Yağışlar səmanın göz yaşı imiş!
Gün ayı sevirmiş, gecə sabahı,
Vüsalla ayrılıq yanaşı imiş!

Sevgiymiş yaşadan vuran ürəyi,
Dərəsiz dumanın yoxmuş gərəyi.
Buludlar dağların bəyaz örpəyi,
Qayalar düzlərin başdaşı imis!

Ay Afaq, yaşayıb gedirik, belə,
Umuruq - hardansa bir işıq gələ.
Ölüm də yaşamla tutub əl-ələ…
Bu həyat ömür-gün savaşı imiş!

## VƏTƏN OĞLU!

Sən elə yeri ki, düşmən üstünə,
Qalansın leş üstə leş, Vətən oğlu!
Xainin, bədhaxın silinsin izi,
Qalmasın daş üstə daş, Vətən oğlu!

Eşidim səsini Qarabağından,
Dağı düşmənə çək Vətən dağından!
Mənə muştuluq ver zəfər çağından,
Qurusun gözümdə yaş, Vətən oğlu!

Mən də öz yurdumun vətəndaşıyam!
Havası, torpağı, suyu, daşıyam!
O günü görməkçün gərək yaşayam!
Ömür aman edə, kaş, Vətən oğlu!

## BƏNÖVŞƏ

*"Söylə ləkədirmi, yoxsa xaldımı*
*Nədir üzündəki qara, bənövşə?"*
***O. Sarıvəlli***

Gəzəydim yurdumda gülü-gülşəni,
Bihuş eyləyəydin ətrinlə məni.
Oxşayıb o zərif ləçəklərini,
Səni göndərəydim yara, bənövşə!

Aşiqdin çəmənə, aşiqdin gülə,
Düşdün eşq oduna sən bilə-bilə.
Nədir ah çəkirsən dərindən belə,
Varmı ürəyində yara, bənövşə?

Səni biganələr dərib atıblar,
Çiçəkli yazına xəzan qatıblar...
Yoxsa ki, eşqini pula satıblar,
Çəkiblər qəlbini dara, bənövşə?

Afaqam, içimi min ümid sarar,
İstəyim - bir dəniz, qəfəsimsə dar.
Alovu sönməyən bir Vətənim var -
Düşmüşəm borana, qara, bənövşə!

## GÜLÜM

*Yalnız Qarabağda bitən Xarıbülbülə...*

Nə gözəlsən, nə də göyçək!
Vətənimin varı, gülüm!
Üstündə var gör neçə rəng:
Ağ, qırmızı, sarı, gülüm!

Ləçəklərin təzə-tərdi,
Heyif ki, gəldi-gedərdi...
Təklik ölümdən betərdi,
Çağır gəlsin yarı, gülüm!

Vurulmusan ürəyindən,
Dağ inləyər gileyindən.
Silə biləm taleyindən
Bu boranı, qarı, gülüm!

Başın üstdə qarı düşmən...
Bir gözün var - iki çeşmən!
Ayrı düşdük səninlə mən!
Dözürsənmi, barı, gülüm?

Bir gün səni üzəcəyəm,
Tellərimə düzəcəyəm.
Mən doyunca gəzəcəyəm
O cənnət diyarı, gülüm!

Sən nə biçim möcüzəsən:
Yarı gülsən, yarı bülbül,
Xarıbülbül, Xarıbülbül!

## TALEYIN AÇILMAZ OVUCUNDAYIQ!

**Ö**mür daş qəlibdə, günlər qanadlı,
Aşılmaz bir dağın yamacındayıq.
Dərd var içimizdə - ayrılıq adlı...
Hərəmiz dünyanın bir ucundayıq.

Həyat var, sevinci sığır bir ana,
Sevinc var, dar gəlir geniş cahana.
Yaşayıb dözürük hər imtahana,
Kim bilir qismətin nə suçundayıq?!

Ay Afaq, arzular duranda üzə,
Tükənən imkanlar baxmaz ki, sözə...
"Azad ol" desə də xəyallar bizə,
Taleyin açılmaz ovucundayıq!

## HEYİF!

**H**əsrət yox eyləsə vüsal dəmini
Bəslənən ümidə, gümana heyif!
Sevənlər çəkərkən hicran qəmini
Əğyara verilən amana heyif!

Gəlirsə ayrılıq dərdi dərindən,
Ürəklər qırılır sevər yerindən.
Anlayan yoxdursa nəğmələrindən,
Boşuna inləyən kamana heyif!

Zamanın gərdişi qəlbimi sıxır,
Böhtanlar, yalanlar çox evlər yıxır.
Elə "yaxşı"lar var, qarşına çıxır,
Deyirsən, əvvəlki yamana heyif!

Belədir həmişə dünyanın halı,
Sarbanla bir gedir karvanın malı.
Törədən – "günahsız", görən – cəzalı,
Altından su keçən samana heyif!

Afaqam, dilimdən düşməyir Vətən,
Arzumla qismətim gələcəkmi tən?
Nə ömür əbədi, nə həsrət bitən...
Qürbətdə puç olan zamana heyif!

## BƏSDİ!

İlahi, rəhm eylə, ağlatma məni,
Torpağa göylərin yağışı bəsdi!
Düşməsin qəlbimə həsrətin çəni,
Düşərsə sevginin naxışı, bəsdi!

Nə olar, tək qoyma birçə an məni,
Ovuda bilməz ki, bu cahan məni…
Yormasın bir belə imtahan məni,
Yolların enişi, yoxuşu bəsdi!

Ələnib saçıma qürbətin qarı,
Yenə tac bilmişəm əhdi, ilqarı.
Afaqam, neynirəm dövləti-varı?
Anamın bircə xoş baxışı bəsdi!

## KEÇİR

Özümdən gileyli dayanmışam mən,
Nisgilim gözümün yaşından keçir.
Taleyi gecdən gec oyanmışam - mən,
Yolum ucurumun başından keçir.

Gah ağır, gah asan ötür günlərim,
Qolboyun olubdur xeyirim, şərim.
Qəmli sətirlərlə dolur dəftərim,
Baharım taleyin qışından keçir.

Deyəsən çat verib Haqqın ələyi,
Ayıra bilməyir düzdən kələyi.
Ay Afaq, naşımı sevgi mələyi,
Oxları qəlbinin tuşundan keçir?

## BU DÜNYA BELƏ DÜNYADI

Dözməyəsən neyləyəsən,
Bu dünya belə dünyadı...
Bəzən sərtdi qaya kimi,
Bəzən də pilə dünyadı.

Hikməti var hər daşında...
Hərə bir can savaşında.
Bilməzləri iş başında,
Biləni kölə dünyadı.

Sirr küpüdü gen sinəsi...
Açılmazdı məngənəsi.
Sevincləri - qum dənəsi,
Dərdləri - şələ dünyadı.

Bağlanıbdır haqqa yolu,
Nə sağı var, nə də solu.
Gündüzləri  ümid dolu,
Gecəsi - tələ dünyadı.

Kimi "ömür - fani" deyir,
Kimi "zaman - cani" deyir,
Kimi "həyat - ani" deyir…
Bu dünya belə dünyadı!

## DƏRDİNİ

**N**ə çoxdur dünyada dərdi olanlar,
Qəlbində saxlayır hərə dərdini.
Bilmədən özünü dərdə salanlar
Yer gəzir, üstünə sərə dərdini.

Canandan ayrılan canda yox, tutar,
Yoxu var eləməz, varı yox tutar.
İnsan var, özünü elə tox tutur,
İstəməz bir kimsə görə dərdini.

Əbəsdir güvənmək pula-paraya,
Xoşbəxt o kəsdir ki, bəxtdən yarıya!
İmanlı üz tutar uca Tanrıya,
İmansız söyləyər şərə dərdini.

Kaş kədər qönçəykən sola, puç ola!
Səadət - bir dünya, qəm - ovuc ola!
İstərəm, insanda elə güc ola -
Daş edib divara hörə dərdini!

.

## İSTƏYİMİ YOX SORUŞAN

İstəyimi yox soruşan,
Hey qoşurlar köçə məni.
Gözləyirlər yorqun düşəm,
Endirələr heçə məni.

Hərdən atıb dərdi, qəmi,
Unuduram bu aləmi.
Könlüm evi - yaşıl zəmi,
Kim istəməz biçə məni?!

Nədən axı, bilə-bilə
Ömrü-günü verim yelə?
Kaş mənim də bəxtim gələ,
Bir axtara, seçə məni...

Çoxalıbdır qarğış tökən,
Gül yerinə tikan əkən.
Tanrım, məni geri çəkən
Qoyma gəlib keçə məni!

## GƏLSƏN YAXŞIDI!

Qəlbini daş kimi daşımaqdansa,
Şüşətək yüz yerə bölsən yaxşıdı.
Bir dərd sorağında yaşamaqdansa,
Bir sevinc uğruna ölsən yaxşıdı.

Sevgi həsrətilə ağardıb teli,
Səadət yolunda büksən də beli,
Ağlama, desinlər "dəlidir, dəli!"
Dərdin də üzünə gülsən yaxşıdı!

Bu günün dünəndən olsa da çətin,
Çalış sınmayasan, olasan mətin.
Qürbət yollarında bitsə taqətin
Sürünüb Vətənə gəlsən yaxşıdı!

# K İ T A B I N   İ Ç İ N D Ə K İ L Ə R

Şeir onun üçün qara sevdadır ..................................... 3

**SƏN - YAĞIŞ ƏTİIRLİ, GÜNƏŞ NƏFƏSLİ…**

Bizim yolumuz ......................................................... 12
Məni sabah unudarsan ............................................. 13
Sevən kəslər ............................................................ 14
Sən - mənim ömrümün beşinci fəsli ......................... 16
Dan sökülür aramızda .............................................. 17
Bir gün mənlə birgə unudularsan ............................. 18
Bu bayram gecəsi ..................................................... 19
Səndən yadigar ........................................................ 20
Dənizlər qovuşan yerdə ........................................... 22
Sevgi qoxusu ............................................................ 23
Sevilən insan ............................................................24
Gecikmişəm, bağışla! ............. ................................ 26
Qayıt! ....................................................................... 27
Gecə - bizim gecəydi ............................................... 28
Yarı-yarı .................................................................. 29
Günlərin birində ...................................................... 30
Məni xəyallarla qoydun təkbətək ............................. 31
Kağız xatirələr ......................................................... 32
Bir gün məni axtararsan ........................................... 34
Yalançı dünyamla barışmışam mən .......................... 35
Bir körpəydim ......................................................... 36
Bir lampanın işığında .............................................. 37
Bir bahar yetərdi ...................................................... 38
Gəl ki ....................................................................... 40
Susacaq dodaqlarımız .............................................. 41
Bir arzum var idi ...................................................... 42
Mənə nifrət elə! ...................................................... 44

Sevgiyə öyrəşməyin! .............................................. 45
Yəqin bilirsən ........................................................ 46
Mən sizə gələcəm.................................................. 47
Çağır, gəlim!.......................................................... 48
Çobanyastığı ......................................................... 50

## SƏNİN OLMADIĞIN HƏR YER – QƏRİBLİK!

Azərbaycan bayrağı ................................................ 52
Azad elim - Azərbaycan! ........................................ 53
Çağir məni, əziz bakim! ......................................... 54
Canım Vətən! .......................................................... 55
Son istəyim olacaqsan ........................................... 56
Vətənini dananlardan inciyirəm! ............................ 57
Qürbət suları .......................................................... 58
Sənin olmadığın hər yer – qəriblik! ........................ 60
Qürbətə gedən kişi ................................................. 61
Qəribə dostum ........................................................ 62
Qərib bir axşam ...................................................... 63
Şəhid qardaş .......................................................... 64
Yalan ...................................................................... 66
Dostlarıma ............................................................. 67
İki tarix ................................................................... 68
Laylasız balama ..................................................... 69
Dünya səni niyə sevim? ......................................... 70
Bir durnanı vurdular ............................................... 72
Bir insan var dünyada ............................................ 73
Sən gəlmisən, ay ana! ............................................ 74
Bu gün doğum günün ............................................. 76
Bacımsan mənim .................................................... 77
Yuxuya gedib şəhər ................................................ 78
Qırx üçüncü baharım .............................................. 80

## BU NÖMRƏYƏ ZƏNG ÇATMIR

Nədən mənim deyilsən? ........................................... 82
Sevdiyim .................................................................. 83
Gözəl sevməyi öyrən! ............................................... 84
Sən o zaman gəldin ki ............................................... 86
Sən yaşayan şəhərdə ................................................. 87
O günlərdən gələn dostum ........................................ 88
Bacarmırsan mənim kimi darıxmağı ........................ 89
Bircə baxışdan ........................................................... 90
Mən kövrəlmək istəmirəm! ....................................... 91
Hər şey gözəl başlamışdı .......................................... 92
Səni sevənə kimi ....................................................... 93
Ürəyindən incimişəm ................................................ 94
Bir məktubun var əlimdə .......................................... 95
Bu nömrəyə zəng çatmır ........................................... 96
Silinməzdir yazılanlar ............................................... 98
Nə zamansa... Nədənsə ............................................. 99
Uduzmaq istəyirəm ................................................. 100
Bəzən olur ............................................................... 101
Arzulara aldanmayın ............................................... 102
Gecə yarıdan keçib .................................................. 103
Əlvida de! ................................................................ 104
Bir məktubun var əlimdə ......................................... 105
Öyrəş! ...................................................................... 106
Bəxt ulduzu istəyirəm! ............................................ 107
Yağış yağır .............................................................. 108
Hər unutmaq istədikcə ............................................ 110
Səni bu gün anladım ................................................ 111
Məni bir də sevərsənmi? ......................................... 112
Gəl ........................................................................... 114
Sual .......................................................................... 115
Dünyada beş qadın varsa ........................................ 116

Xəyal qızcığaz .................................................... 118
Gecədəcəm! ....................................................... 120

## DİLLƏNDİR DƏRDİMİ SİMLƏRİN ÜSTƏ!

Aşıq, "Yanıq Kərəmi" çal! .................................. 122
Güman əbədi deyil ............................................... 123
Ana, məni əzizlə! ................................................. 124
Bu qış bir gün bitəcək! ......................................... 125
Dünya yalan deyil ................................................ 126
Yanma! ................................................................ 127
Düzülüb gedir ..................................................... 128
Sən neyləyəsən?! ................................................. 129
Unutmaq asansa .................................................. 130
Həsrətimi çəkərsən! ............................................. 132
Məni buraxma! .................................................... 133
Sənə yazdığım sətirlər .......................................... 134
Dilləndir dərdimi simlərin üstə! ........................... 135
Sən olmadın ......................................................... 136
Mən olum ............................................................ 137
Səni .................................................................... 138
Məni.......................... ....................................... 139
Həsrətini çəkəcəksən ........................................... 140

## GƏRAYLILAR, QOŞMALAR – İLHAMLA QOVUŞMALAR

Göndərdi ............................................................ 142
Mən bəxtimi uca bildim ........................................ 143
Haradan gəlir? ..................................................... 144
Keç gözümün yaşından! ........................................ 145
Dodağında qalmışam ............................................ 146
Baxıram .............................................................. 147

Mənə “mələyim” de! ............................................ 148
Sabahıma qapıları açmaq üçün .............................. 149
Sevgi – bir həyatdır! ............................................. 150
Qaytar! .................................................................. 151
Tellərim ................................................................ 152
Ürəyimə ................................................................ 153
Sevəcəyəm özüm səni ........................................... 154
Sənintək ................................................................ 155
Dağlarda nəfəs al! .................................................. 156
Bizik! .................................................................... 157
Gəlmədi sonu dünyanın ......................................... 158
Çalış! .................................................................... 159
Yerə göydən baxma, bala! ..................................... 160
Düşmüşəm ............................................................ 161
Adam var .............................................................. 162
Bu həyat – ömür-gün savaşı imiş .......................... 163
Vətən oğlu! ........................................................... 164
Bənövşə ................................................................ 165
Gülüm ................................................................... 166
Taleyin açılmaz ovucundayıq! ............................... 167
Heyif! .................................................................... 168
Bəsdi! ................................................................... 169
Keçir ..................................................................... 170
Bu dünya belə dünyadı .......................................... 171
Dərdini .................................................................. 172
Istəyimi yox soruşan ............................................. 173
Gəlsən yaxşıdı! ..................................................... 174

# ÖMRÜMÜN BEŞİNCİ FƏSLİ
## Afaq ŞIXLI

Müəlliflə əlaqə**: a_shixli@mail.ru**

Redaktor: Məmməd İsmayıl